

***"Azərbaycan" qəzetinin 297-ci nömrəsinin 1-ci səhifəsi***





**Cümə axşamı, 16 oktyabr 1919-cu il, nömrə 297**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Pəncşənbə, 21 məhərrəmül-haram sənə 1338. 16 təşrini-əvvəl 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhalli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 2 manat 50 q.**

**Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 70 rublə, 2 aylığı 130 rublə, 3 aylığı 180 rublə. Bakı üçün 1 aylığı 60 rublə, 2 aylığı 110 rublə, 3 aylığı 150 rublə. Abunə şəraiti ancaq həmin sənə yanvar ayının 1-nədək heasb olunur.**

**Elan fiatı: birinci səhifədə sətri 8 rublə, axırıncı səhifədə sətri 6 rublə, itən şeylər və yer axtaranlar üçün 4 rublə axırıncı səhifədə, 6 rublə birinci səhifədə.**

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Əksinqilabla Mübarizə Təşkilatı müdiri və məmurları bu gün təşrini-əvvəlin (oktyabrın) 16-sında səhər saat 9-da təşkilat müdiri müavini **Mirfəttah Musəvinin** fəcianə [faciəvi] surətdə qətl olduğunun 40 günlüyü münasibətilə Təzəpir məscidində fatihəxanlıq məclisi tərtib olacağını elan edir.

*T-287*

## SİRK "MODERN"

Pəncşənbə günü oktyabrın 16-nda 1919-cu ildə məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə təşkil edilmiş Fransa güləş mübarizəsinin mabədi.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-nci: Boqatıryov – Gənc Əli.

2-nci: min manat mükafatdan: Qara Maska – Raqenbaum.

3-ncü: Muznik – Makarov.

Pəhləvanların çıxışı və mübarizənin başlanması saat 11-in yarısında. Tamaşa başlanacaq 8-də, qurtaracaq 12-də. Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

Elan: Qırmızı Maskanın benefisi hazırlanır.

*11454*

## ELAN

Bununla Azərbaycan Dəmiryol İdarəsi məlum edir ki, Türüq və Məabir [Nəqliyyat və Rabitə] nazirinin 919-16/7-ci ildə verdiyi icazənamə üzrə elan olunan gündən Bakı şəhər istasyonu körpüsünə gələn paraxodlardan atidəki [aşağıdakı] xərclər alınacaqdır:

1) 15 min pud yükü və boş olan paraxodlardan sutkada 300 rublə;

2) 40 min pud yükü olan paroxodlardan sutkada 500 rublə;

3) 4 min pud yükü olan lodka, kərəci və barkazlardan sutkada 100 rublə;

4) Dəmiryol ilə gələn yükləri şəhərə gətirən lodkalardan bir vaqondan 150 rublə.

Yuxarıda zikr olunan xərclər Dəmiryol İdarəsi ilə şəraitə girməyən paraxod sahiblərindən alınacaqdır.

*T-285*

Cümə günü, məhərrəmül-haramın 22-də səhər saat 10-da "İttihad" məktəbində Cəmiyyəti-Maarifi-İraniyan "Tərəqqi"nin adi, ümumi iclası vaqe olacaqdır. Möhtərəm üzvlərdən rica olunur ki, aldıqları xüsusi dəvətnamələri özləri ilə gətirsinlər.

Məsaili-yövmiyyə [gündəlikdəki məsələlər]:

1) Köhnə idarənin izahatı;

2) Heyəti-idarə intixabı [seçkisi];

3) Məsaili-cariyyə [cari məsələlər].

Ünvan: Sadovı küçə, nömrə 19.

*11456*

**ELAN**

1919 sənə oktyabrın 16-da pəncşənbə [cümə axşamı] günü gündüz saat 11-də Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan olunur.

*T-288*

**QİSMİ-RƏSMİ**
**[RƏSMİ HİSSƏ]**

**Azərbaycan Cümhuriyyəti Ticarət, Sənaye və Ərzaq Nəzarətindən**

Əmrnamə nömrə 137

11 oktyabr 1919

Martın 19-dan etibarən Ticarət, Sənaye və Ərzaq Nəzarəti təhti-idarəsində [tabeçiliyində] bulunan və nazir nəzdində xüsusi işlər mühəndis[i] vəzifəsini ifa etmiş və etməkdə olan mexanik-mühəndis Lüdviq Mixayloviç Pekarski həmin sənə mart ayının 19-dan etibarən həman mənsəbində təsdiq edilir.

*İmza etdi nazir: [Ağa] Əminov*

Əmrnamə nömrə 138

Hökumət zavodları müdiri texnoloq-mühəndis Rüstəm bəy Sultanov məzuniyyətindən qayıtmadığı üçün oktyabrın 1-dən etibarən vəzifəsindən və xidmətdən kənar edilir.

*İmza etdi nazir əvəzinə: Manço*

**İKİ SİYASƏT**

Cahanşümul müharibənin ən böyük zərbələrini yemiş, ən ağır imtahanlarını keçirmiş, ölümünün qıldan asılı anlarını dəfələrə hiss etmiş olan Fransa, bu bəlalardan xilas olduqdan bəri, əsəbi bir hala düşmüş kimi görünür. Təəccüb deyildir.

Böylə bir ehtisasati-əmiqə və təəssürati-fəciə [dərin hisslər və faciəli təəssüratlar] keçirmiş olan firənglərdə əsəbiyyət peydası və ədəmi-etidal [təmkinin, soyuqqanlılığın itirilməsi] təzahüratı müharibənin ekspansiv təbiət üzərində buraxdığı əsərlərin təbii nəticəsidir.

Bu əsəbiyyət firənglərin bugünkü siyasətində müşahidə olunur və bunun acılığını üzərlərində hiss edənlər, keçmiş müharibədə almanlarla ittifaqda bulunanlar və onlara xəfi və ələni [gizli və aşkara] müzahirət [köməklik] göstərmiş olanlardır. Məsələn, Avstriya, Türkiyə, Bolqariya və ilx. Türkiyəyə gəldikdə, Fransanın siyasətindəki əsəbiyyətin acılığı deyil yalnız türklərə, bəlkə türklərlə gizli və ya aşkara əlaqələrdə "məznun" olanlara [təqsirləndirilənlərə] dəxi şamildir. Bunlar da türk mühibbi [dostu] olan islamlar və türklərlə təmas və əlaqədə bulunmuş qeyri-islamlardır.

Bu üzdən, Azərbaycan və Gürcüstan dəxi Fransanın əsəbiyyətini mövcib [əsəbiyyətinə səbəb] olan millətlər cümləsindəndir.

Azərbaycan və Gürcüstanın istiqlaliyyətləri təsdiq edilərsə, müttəfiqimiz Rusiya bizdən inciyər və ehtimal, almanlarla əlbir olub təkrar bizə qarşı müharibə açarlar qorxusu bir tərəfdən, düşmənlərimiz səyilə əleyhimizə yapılan təşviqat





və təhrikat [təhriklər] digər tərəfdən, firəng siyasilərinin əsəbiyyətini qalxızıb acıqlarını tutdurur.

Neçə gün əvvəl qəzetələrdə oxuduq ki, Fransa Xariciyyə naziri, Azərbaycan və Gürcüstan millətlərinin xahiş və iradələri ilə təşəkkül etmiş olan cümhuriyyətlər haqqında fikriniz nədir deyə Parlamanda vaqe olan suala, "Zənn edirəm bu cümhuriyyətlər müvəqqətidir, əlavə, gürcülər ruslar və ermənilərə qarşı düşmənçilik edirlər" sözləri ilə cavab vermişdir.

Firənglər əsəbi siyasət yürütməkdə ikən, sanki əsəbilik nə olduğunu [bilməyən], hər bir hadisəyə qarşı soyuqqanlılıq göstərən, hüzur və etidalını əsla xələldar etməyən [pozmayan] ingilislər, adi yol ilə öz siyasətlərinə davam edib, müharibə nəticəsi dolayısılə dəyişmiş olan vəziyyəti-hazirənin müsaidliyindən bilistifadə [istifadə etməklə], müharibədən əqdəm [əvvəl] hüsulu qeyri-mümkün olan arzuların istehsalı [əldə edilməsi] ilə məşğul olurlar. Bu yaxınlarda İran ilə yapılmış olan müahidə [saziş] iştə bu arzuların biridir ki, Rusiya çarlığı zamanında yapıla bilməzdi. Azərbaycan və Gürcüstan haqqında yürüdülən xeyirxahanə bir siyasət və sabiq düşməni Türkiyəyə qarşı göstərilən etidal və nəzakət, ingilislərin ekspansiv firənglər kimi erməni və rum donoslarına və bu növ təşviqat və təhrikata laqeyd qaldıqlarına da böyük bir dəlildir.

Bundan dolayıdır ki, ingilislər Qafqazda, İranda, Türkiyədə böyük bir nüfuz qazanmaq və hüsn-rəğbət görmək üzrə ikən Fransa tərəfindən eşidilən sözlər buralarda heyrəti-istiğrabla tələqqi edilir [təəccüb və heyrətlə qarşılanır].

Fəqət bu yaxınlarda Suriya tərəfində vüqu bulmuş bir fəqərə [hadisə] sanki firənglərin Şərqi-qərib [Yaxın Şərq] siyasətindəki bir çox şeyləri görməyə mane olan əsəbiyyətini müvəqqəti, bəlkə sonra daimi də olsa bərtərəf edib [aradan qaldırıb], gözünü açdı. O vəqə Fransanın mənafeyi ilə əlaqədar olan Suriyada ingilis və firəng məmurları arasında vaqe olan münaqişə və münazię [mübahisə] idi. Bu vəqə firənglərin diqqətini o tərəfə cəlb, dolayısılə ingilis Şərqi-Qərib siyasətini gözdən keçirməyə məcbur etdi.

İştə, Fransa Xariciyyə Nəzarətinin nimrəsmi [yarı rəsmi] qəzetəsi olan "Tan" bu xüsusda bir məqalə yazmışdır ki, "Şərq məsələsi və Fransa" sərlövhəsi ilə iki gün əvvəlki nömrəmizdə bittərcümə mündəric idi [tərcümə edilərək dərc edilmişdi]. İngilis Şərqi-Qərib siyasətini mütaliə yolu ilə tənqid edən bu məqalə, nazik [incə, tərbiyəli] bir lisanla yazılmış şiddətli bir etiraz olmaqla bərabər, Fransanın öz yanlış siyasətindən peşman olmağa başladığını da sezdirən bir sənəddir. "...Başqa yerlərdə olduğu kimi, Şərqdə də Müttəfiqin [Müttəfiqlər] işlərinə Fransa böyük xidmətlər edə bilərdi, əhalinin hüsn-təvəccöhünü iktisab etməyi [rəğbətini qazanmağı] Fransa bacarır" deyə bu yollu kinayələrdən, Şərqdə "Müttəfiqlərə xidmət" etmədiyinə və ora əhalisinin hüsn-təvəccöhünü iktisaba çalışmadığına bu sözləri söyləyənin peşman olduğunu dərk etmək asandır.

Həqiqəti-hala ciddiyyətlə vüquf yetirmək əvəzində erməni və rumların əfsanə və əracifi [yalanları] ilə iktifa [kifayət] edən firənglər, Cümhuriyyətlərimizə müvəqqəti bir şey hesabında baxmağa davam və "gürcülər erməni və rusların düş-

məndir” məallı [mənalı] və əsassız məlumata istinadlarında inad edərlərsə, ola bilsin ki, axırda daha da peşman olub, qeyri-qabili-islah [düzəldilməsi mümkün olmayan] dərəcəsinə varmış xətalarının acılığından əfsuslar yeməkdən başqa özgə bir çarə olmadığını görər.

Fəqət ümidvarıq ki, cümhuriyyətlərimizin millət və camaatımızın idarə və arzusu ilə əmələ gəldiyini bilmiş olan Fransa Parlaman əzalarının vücudu [Parlament üzvlərinin varlığı] və təsiri ilə Fransa ricali-hökumətinin [hökumət adamlarının] peşmançılıqları mövcib ola biləcək əsəbiliyi bərtərəf edilməklə, siyasəti dəxi başqa bir yola dönər ki, o yol, zənnimizcə, daha doğru və daha müstəqim [düz] bir yoldur.

*Hacıbəyli Üzeyir*

## MƏCLİSİ-MÜƏSSİSAN SEÇKİLƏRİ HAQQINDA QANUN

### Birinci bab
### Ümumi əsaslar

1. Məclisi-Müəssisan bilafərqi-cins [cinsiyyət fərqi olmadan] ümumi və müsavi seçki haqqı əsası üzərinə, doğru seçki vasitəsi, örtülü səs vermək təriqi [üsulu] və mütənasib nümayəndəlik əsasının tətbiqi ilə əhali tərəfindən seçilmiş əzadan [üzvlərdən] təşəkkül edər.

2. Məclisi-Müəssisan seçkilərinin icrası üçün bir seçki nahiyəsi qərar verilir. Məclisi-Müəssisana seçiləcək əzanın miqdarı 120 təyin olunur. Rəy [səs] vermək üçün Cümhuriyyət seçki məntəqələrinə bölünür.

### İkinci bab
### Seçki haqqı xüsusunda

3. Cümhuriyyətin seçki gününədək 20 yaşına yetişmiş olan ümum vətəndaşları bilafərqi-cins Məclisi-Müəssisan seçkilərində iştirak haqqına malikdirlər. Feilən xidməti-əsgəriyyədə bulunan zəvat [şəxslər] ancaq seçilmək haqqına malikdirlər. Pristavlar, qəza qaimməqamları [qəza rəisləri], onların müavinləri, qalabəyilər [komendantlar], onların müavinləri, valilər (qubernatorlar) və müavinləri kimi zabitə xidmətində bulunan zəvat isə ancaq seçmək haqqına malikdirlər.

4. Qanunun qəbul etmiş olduğu qaydalar üzərinə divanə və ya dəliliyi yəqin edilmiş əşxas, öylə lal və kar olanlar, həmçinin qəyyumluq altında bulunan adamlar seçkiyə iştirak edəmməzlər.

5. Aşağıda zikr olunan adamlar seçki haqqından məhrumdurlar:

a) Məhkəmələr tərəfindən hüquqdan məhrum edilib də məhrumiyyətləri qanun gücünü almış və seçkilərin icrası zamanınadək iadeyi-hüquq etməmiş olanlar:

1) Kürək cəzasına məhkum olub da cəzasını çəkdikdən sonra 10 il keçməmiş olanlar;

2) Təbidə [sürgünə], tədib [cəza] üçün həbsxanaya alınmağa, tədibxanada [cəza müəssisəsində] həbsə, məhbəs yaxud qalaya salınmağa məhkum və hüququndan məhrum yainki hüququ təhdid edilmiş [məhdudlaşdırılmış] və cəzasını çəkdikdən sonra 5 il keçməmiş olanlar;

b) “Məcmeyi-qəvanin [Qanunlar toplusu] 15-ci cild, 1914” əsası ilə Cəza Qanunnaməsinin 171-ci fəsil ikinci maddəsində qeyd olunduğu üzrə sülh məhkəmələri tərəfindən təyin olunan cəzalar və həman Nizamnamənin 177-ci fəslinin ikinci qismində, 1681-ci fəslin ikinci qisminin 1912 sənəsi Tədib və Cəza Qanunnaməsinin mütəmmimi [əlavəsi] müstəsna olmaq üzrə, oğurluqda, dolandırıcılıqda [fırıldaqçılıqda], kəndisinə etibar edilmiş malı mənimsəmək yaxud israf etməkdə müttəhim olanlar, həmçinin oğurluq mal gizlətmək, saxtakarlıq, rüşvət almaq, rüşvət vermək, vasiteyi-fuhuş olmaq (Məcmeyi-qəvanin, 15-ci cild, Cinayət cəzaları, 1909-cu il, 524, 526, 526-1, 527 və 529) və bundan maəda [bundan başqa] təşriiyyə [qanunvericilik] müəssisələri və idareyi-məhəlliyə [yerli idarə] seçkilərinin dürüstlüyünü və azadlığını pozmaq qəsdi ilə icra olunan hərəkatda ittihamla cəzalanaraq cəzasını çəkdiyindən sonra üç il keçməmiş olanlar;

c) Bərşikəst olmuş əşxas [müflis olmuş şəxslər], müəyyən qanun gücünə yetişmiş məhkəmə qərarı ilə sui-niyyət [mənfi niyyət] bəsləyən bir müflis kimi tələqqi edilmiş [qiymətləndirilmiş] adamlar, bu şərtlə ki, sui-niyyət sahibi bir müflis kimi tələqqi edildiyindən 3 ildən artıq keçməmiş ola;

d) Özbaşına əsgər sifəti tərk etmiş olan əsgəri məmurlar.

6. Hər seçki məntəqəsində ancaq məntəqə seçki siyahısına qeyd edilmiş əşxas intixabatda iştirak etmək haqqına malikdir.

7. Seçki haqlarının şəraiti [şərtləri] şəxsində mövcud olan zəvat seçki siyahısına daxil edilməmiş olsalar da, seçilmək haqqına malik olurlar.

8. Seçki siyahısına daxil olub da, intixab vaxtınadək hüququnu qeyb etmiş (4 və 5-ci maddələr) şəxslər seçki hüququndan məhrum edilirlər.

### Üçüncü bab
### Məclisi-Müəssisan seçkilərini idarə edən müəssisələr haqqında

9. Seçki icrasını idarə vəzifəsi Mərkəzi (Cümhuriyyət), qəza, şəhər məntəqəsi, köy icması və xırda köy komisyonları öhdəsinə buraxılır.

Qeyd: Zaqatala quberniyasında seçkiləri qəza komisyonu haqq və səlahiyyəti ilə Zaqatala quberniyası seçki komisyonu idarə edir.

10. Azərbaycan Məclisi-Məbusanı Mərkəzi Seçki Komisyonuna 21 adam seçər. Komisyon dəxi öz arasından sədr, müavini-sədr, katib və xəzinədar seçər. Mərkəzi İntixab Komisyonuna, namizədlər siyahısı daxil olduğu gündən etibarən komisyon əzası haqqına malik olmaq üzrə namizəd siyahısı vermiş siyasi firqə və yaxud qrupların birər nümayəndəsi daxil olarlar.

11. Məclisi-Müəssisan seçkiləri hazırlamaq üçün təsis olunan Mərkəzi (Cümhuriyyət) Komisyonunun vəzifəsi:

1) Məclisi-Müəssisan seçki icraatına ümumiyyətlə baxmaq, bu işləri təcil [sürətləndirmək] üçün lazım gələn tədabiri [tədbirləri] görmək və ariz olan [meydana çıxan] məsələləri müzakirə etmək;

2) Məclisi-Müəssisan seçkiləri üçün istatistik və sair məlumat toplamaq, tərtib vermək;

3) Qəza seçki komisyonlarının vaxtlıvaxtında təəssüs [qurulmasına] və fəaliyyətə şüru etmələrinə [başlamalarına] nəzər yetirmək;

4) Qəza komisyonlarının təqdimi ilə

seçki məntəqələrinin təqsimini [bölünməsini] təsdiq etmək və bu təqsimat əsnasında vaqe olan haqsızlıqlar üzərinə verilən şikayətlərə baxmaq;

5) Şəhər və xırda köy komisyonlarının seçki siyahısı tərtib, təhqiq və ümumun ənzarına [nəzərinə] təqdim etmələri vaxtını təyin və ümuma elan etmək;

6) Namizədlər siyahısını qəbul və mütaliə etmək [qiymətləndirmək], siyahıları nömrələmək, onları təhqiq üçün ümumun ənzarına təqdim etmək, siyahıları qəza, şəhər məntəqəsi, köy icması və xırda kəndlər komisyonlarına yetirmək, həmçinin siyahılar birləşdirildiyi təqdirdə bu xüsusu ümuma elan etmək;

7) Seçki kağız və zərflərini hazırlamaq haqqında binagüzarlıqda bulunmaq [tədbirlər görmək];

8) Bütün nahiyədə səsləri saymaq, intixabat nəticəsini təyin və ümuma elan etmək;

9) Məclisi-Müəssisan əzasının siyahısını tərtib vermək və seçilmələri haqqında onları lazımi şəhadətnamələrlə təchiz etmək;

10) Seçkilərə aid ümum işləri Məclisi-Müəssisana təhvil vermək; və:

11) İntixabat icrası üçün xəzinədən buraxılan təxsisat [pul vəsaiti] haqqında binagüzarlıq etməkdir.

12. Qəza Seçki Komisyonunu bələdiyyə idarələri təyin edərlər. Böylə bir idarəsi olmayan yerlərdə qəza komisyonu sülh hakimləri (miravoy sudya), varsa qəza təbibi, Maarif Nəzarətinin məhəldəki ən böyük mənsəbli nümayəndəsi, xalq məktəbləri müfəttiş[i] və yaxud rüşdiyyə məktəbi naziri, bunlardan yoxsa maliyyə müfəttişi, o da olmasa meşəbəyidən ibarət üç məmurun dəvəti ilə əhalidən iki zatın iştirakı surəti ilə təşəkkül edər. Qəza Komisyonu öz arasından bir sədr, bir müavini-sədr, bir katib və bir dəxildar [kassir] intixab edər. Namizədlər siyahısı Mərkəzi Komisyona daxil olan gündən etibarən, namizədlər siyahısı çıxarmış olan siyasi firqələr və qrupların birər nümayəndəsi əza hüququna malik olmaq üzrə qəza komisyonuna daxil ola bilərlər.

13. Qəza komisyonunun vəzifəsi:

1) İcma və xırda köy komisyonları təşkili;

2) Şəhər məntəqə komisyonları təşkili;

3) Məzkur [deyilən] komisyonların öz vaxtında fəaliyyətə başlamalarına baxmaq;

4) Kənd icmalarını və köyləri seçki məntəqələrinə təqsim etmək [bölmək] və şəhərləri seçki dairələrinə bölmək layihələrini Mərkəz Komitəsinə təqdim etmək;

5) Seçki siyahılarının vaxtlı-vaxtında tərtibi və təhqiqi üçün ümumun nəzərinə vəz [təqdim] eyləməsinə diqqət etmək;

6) Seçki sandıqlarını hazırlamaq və paylamaq;

7) Seçki siyahılarının dürüst tərtib verilməməsi müqabilinə və həmçinin şəhər, məntəqə, köy komisyonlarının sair nahaq əməllərinə qarşı edilən şikayət və protestolara baxmaq;

8) Namizədlər siyahısı barəsində seçkiçilərə məlumat verilməsi üçün tədbirlər görmək;

9) Şəhərdə və qəzada namizədlər siyahısına verilmiş səslərin miqdarını təyin etmək; və:

10) İntixabata aid ümum işləri Mərkəzi Seçki Komisyonuna təhvil vermək.





14. Bakı qəzasının seçki komisyonu 9 əzadan, Gəncə, Şəki, Şuşa qəzalarınınkı yeddişər, yerdə qalan ümum qəzalarınkı beşər əzadan ibarət olmalıdır.

Qeyd: Bakı, Gəncə, Şuşa və Şəki komisyonlarından başqa, yerdə qalan ümum qəza komisyonlarına müavini-sədr intixabı məcburi deyildir.

15. Şəhər seçki məntəqəsi sədri qəza komisyonu heyəti-rüəsası [rəyasət heyəti] tərəfindən intixab edilər. Sədr Məclisi-Müəssisana namizəd siyahısı çıxarmış olan firqə və qrupların birər nümayəndələrindən ibarət komisyon təşkil edər.

16. Şəhərlərdə məntəqə seçki komisyonlarının vəzifələri:

1) Seçki vərəqələrini yığmaq və saymaq;

2) Məntəqə komisyonundakı seçkiyə aid ümum işləri qəza komisyonuna təhvil vermək.

*(mabədi var)*

**TELEQRAF XƏBƏRLƏRİ**

*(Azərbaycan radio mövqifi tərəfindən alınmışdır)*

*(Bolşevik xəbərləri)*

**Şahzadə Firuzun bəyanatı**

Lion - İran hökuməti Xariciyyə naziri şahzadə Firuzun bəyanatına görə, İran hökuməti İngiltərə ilə əqd etdiyi müahidəni [imzaladığı sazişi] baxılmaq üçün Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] təqdim etmək fikrindədir. Şahzadə vətəninin fəlakətli övzasını [vəziyyətini] təsvir etmişdir: Bitərəfliyinə baxmayaraq İran talan edilmiş, bərbad olmuş və intizamı pozulmuşdur. Heç bir vəsaiti-nəqliyyə yoxdur. Şahzadə bəyan etmişdir ki, İran kəndi fəlakətli övzasını Sülh Konfransına ixbar etmək [bildirmək] üçün mürəxxəslərini [nümayəndələrini] Parisə göndərdi. Lakin mürəxxəsləri heç kim istema etmək [dinləmək] istəməyir.

**Bitərəf fəhlələrə müraciət**

Bolşeviklər bitərəf fəhlələrə xitabən böylə müraciətnamə nəşr etmişlərdir:

Bütün bitərəf fəhlələr kəndi fəhlə firqələrini müdafiə edərlərsə, o zaman tezliklə burjuaz və mülkədarları məğlub edərək müharibəni qət etmək [dayandırmaq] olar. İştə, iki sənədir ki, fəhlə və kəndli işləri yolunda Kommunist Firqəsi bütün cəbhələrdə qanına qəltan olur. İştə, bu saat Denikin və Kolçak qarşısına milyonlarca adam cəbhəyə göndəririz. Biz qoca kommunistləri də cəbhəyə göndərərək qanımızı axıdırıq ki, düşmənlərimizi məqhur [məhv] edərək, fəhlə və kəndlilərin qalibiyyətini möhkəmləşdirək. Bu günlərdə bütün bitərəf fəhlələrə müraciətlə biz bəyan ediriz ki, firqə həftəsində 10 minlər və 100 minlərlə yeni fəhlələr kəndi firqələrinə – o firqəyə ki, bütün cahan fəhlələrinin səadəti yolunda mübarizə edir – gəlməli və yazılmalıdırlar. O firqə də Kommunist Firqəsidir.

**Yaponiyanın tələbi**

Xarkovda nəşr olunan "Veçerneye vremya" qəzetəsi xəbər verir ki, Yaponiya Ticarət Məclisi sədri Osako bəyan etmiş ki, Yaponiya Şərqdə vüsətlənməsinin [genişlənməsinin] İngiltərə və Amerika hö-

kumətləri tərəfindən təmin edilməsi üçün sərfi-hümmət edir. Yaponiya tələb edir ki, Sibiryada, Çində və başqa Şərq məmləkətlərində onun ticarəti imtiyazatı bütün cahan tərəfindən tanınıb təsdiq edilsin. O, Sibirya və Mançuriyaya kəndi emalatxanaları məhsulatı üçün ən əlverişli bazar kimi baxır. Yaponiya imperializm xəyalları bəsləyirsə də, eyni zamanda yenə kəndi ticarəti dairəsini vüsətləndirmək və Yaponiya bayrağı ehtizazı [dalğalanması] üçün geniş dairələr bulmaq qəsdi ilə Sibiryanın qonşu hissəsini əldə etməyə də bir deyəcəyi olmazdı.

**Rusiya necə olmalı imiş?**

[Vasili] Şulgin[in] qəzetəsi "Kiyevlyanin" və Savenko zəhərli bir qələmlə muxtariyyət məsələsi əleyhinə məqalələr yazaraq, inqilabın axırında Romanov üsul və qəvaninınə [qanunlarına] müvafiq mütləqiyyət tərzi-idarəsinin bərpa edilməsini tələb edirlər. Sabiq Petroqrad qəzetəsi "Novoye vremya"nın vərəsəsi və sağ kadetlərin mürəvvici-əfkarı [fikirlərini yayan orqanı] olan "Veçerniye oqni" qəzetəsi Rusiyanın bir general diktaturası altında birləşdirilməsi lüzumunu kəskin bir lisanla dərmiyan edirlər [meydana atırlar] və yenə də Kiyevdə nəşr olunan iki başqa Denikin qəzetəsi füqəra inqilabı əleyhinə şiddətlə iradeyi-kəlam edərək [çıxış edərək, danışaraq], mütləqiyyətin iadə və ehyasını [qaytarılmasını və canlandırılmasını] tələb etmədədirlər.

*(Qafqaziya Müttəfiqlər heyəti radio xəbərləri)*

**Romaniyada Kabinə böhranı**

Bükreşdən [Buxarestdən] verilən xəbərlərə nəzərən, Bratianu Kabinəsi bütün heyəti ilə istefa verdiyindən, yeni Kabinə tərtibinə uzun müzakiratdan sonra Maniu razı olmuşdur.

**İzmir komissiyası**

Beynəlmüttəfiqin [Müttəfiqlərarası] anket komissiyası İstanbuldan İzmirə varid olmuş [gəlmiş] və təşrini-əvvəlin [oktyabrın] 7-də öz işləri xüsusunda Sülh Konfransına məruzədə bulunmaqdan ötrü Parisə hərəkət etmişdir.

*(İtaliya heyəti radio xəbərləri)*

**Almaniya və Yaponiya**

Tokio - Xüsusi Şurada Almaniya ilə əqd ediləcək sülh müahidənaməsi [imzalanacaq sülh sazişi] barəsində olan müzakiratın raporları baxılmışdır. Nəticəsi axırda imperatorun təsdiqinə təqdim ediləcəkdir.

**Fon der Qolts**

Qəzetələrin verdikləri xəbərlərə görə, Baltik səvahili [sahilləri] mahalını Müttəfiqlər Ali Şurasının tələbinə rəğmən [Rüdiger] fon der Qolts təxliyə etməkdən imtina edir. Yenə həman qəzetələr Skandinav dairələrindən aldıqları məlumata istinadən xəbər verirlər ki, Almaniya əsgərləri fon der Qolts komandası altında Riqa şəhərini işğal etmək fikrindədirlər. Hətta lazım görünərsə, Latviya ordusu ilə şiddətli müharibələrə dəxi girişəcəklərmiş.

*(Gürcü teleqraf agentəliyindən)*

**General Quro**

General Quro Suriyada Fransa dövləti





tərəfindən Baş müfəttiş və Şərqdə fransız qoşunlarının Baş komandanı təyin edilmişdir.

**Maklakovun Parisdən Denikin nəzdinə hərəkəti**

Parisdə olan Rusiya nümayəndəsi [Vasili] Maklakov Fransa dövləti razılığı ilə xüsusi sifarişlə Cənubi Rusiyaya Denikin nəzdinə hərəkət etmişdir.

**QƏZETƏLƏRDƏN**

**Xəlil paşanın qaçması ətrafında**

Neçə vaxt bundan əqdəm [qabaq] həbsxanadan qaçmış olan Xəlil paşa və [Məhməd] Tələt bəyin haqqında təhqiqat davam etməkdədir. İstanbul mühafizliyi ilə Divani-hərbi-örfi [Fövqəladə Hərbi məhkəmə] tərəfindən təşkil olunan iki heyəti-təhqiqiyyə [təhqiq heyəti] hənuz ikmali-vəzifə etməmiş [öz işini tamamlamamış], bu məsələdən dolayı həbsxana müdiri Əli bəy də tövqif [həbs] edilmişdir.

**Amerika və mandat**

General Harbordun Zaqafqaziyaya gəlməsi dolayısilə Tiflis siyasi və Məclisi-Müəssisan dairələrində Amerikanın Zaqafqaziya hökumətləri mandatlarını qəbul edib-edəmməyəcəyi məsələsi ciddi surətdə müzakirə edilməyə başlamışdır. Həmin məsələnin müsbət surətdə xitampəzir olmasına [nəticələnməsinə] ehtimal vardır.

**Ermənistan üçün çit**

"Q. D." qəzetəsinə xəbər verirlər ki, general Andranik Londona varid olduqda [getdikdə] orada sükunət edən ermənilər külli miqdarda məbləğ cəm edib Ermənistan ehtiyacı üçün çit almışlardır. Çit alıb və Ermənistan möhtacları arasında təqsim etməkdən [paylamaqdan] ötrü xüsusi bir heyət intixab edilmişdir [seçilmişdir] ki, bu günlərdə İngiltərədən Ermənistana hərəkət edəcəkdir.

**Almaniyada monarxizm cərəyanı**

Almaniya qəzetələrinin yazdığına görə, axır vaxtlarda bütün Almaniyada monarxizm cərəyanı davam edib, get-gedə artmaqdadır. "Pancermen" [Pangermanizm] cəmiyyəti kəndi hərəkat və fəaliyyətini bir daha artırıb, Almaniyada yenidən monarxiya üsulu-idarəsi bərpa etməyə səy edir.

**Avstriyanın halı**

Cenevrədən xəbər verirlər ki, Avstriya hökumətinin halı nəhayət dərəcə fəna olub, məmləkət böyük bir fəlakət və iqtisadi iflas qarşısındadır. Hökumət böylə əhval haqqında rəsmi surətdə elan və dolayısı ilə məmləkətin ümuri-idarəsini [idarə işlərini] Müttəfiqlər heyəti-səfarətinə təslim etmək fikrində imiş.

**Şərqdə Fransa siyasəti**

Suriyadan dolayı İngiltərə-Fransa miyanında [arasında] sərzədeyi-zühur olmuş [baş göstərmiş] ixtilaf münasibətilə "Tan" qəzetəsində dərc edilmiş məqaləni qeyd, ixtilaf səbəblərini təhlil və onun təsviyəsi [aradan qaldırılması] yollarını iraə ilə [göstərməklə], Fransa Xariciyyə Nəzarətinin rəsmi qəzetəsi "Tayms" yazır:

*"Tədavi [müalicə] arar ikən xəstəliyi doğuran səbəblərlə onun əlamətini imti-*

*zac etmək [qarışdırmaq] doğru olammaz. Fransa hökuməti nümayəndələri ilə mətbuatın şikayətləri ancaq əlamət olub, xəstəlik isə 1916-cı sənə İngiltərə-Fransa müahidəsi mövcibincə [sazişinə əsasən] Fransaya əta edilmiş hüquq və imtiyazatı müənnidanə bir təriq ilə [inadla] tanı[ma]maqdadır. Əlamət mümkündür ki, eyi olmasın. Fəqət o, kəndisinə cəlbi-diqqət etməklə faydabəxş olur. Hərgah fransızlar qabaqda şikayət etmiş olsaydılar, ola bilərdi ki, "Tan" və Fransanın başqa ingilis dostları müdavat əczası [müalicə dərmanları, vasitələri] üçün bu qədər müşkülat çəkməzlərdi. Haqqı qərar etmənin füyuzrəs olmasına [bolluq və bərəkət gətirməsinə] və bilxassə [xüsusilə] ittihadlarını [birliklərini] mühafizə etmək üçün bəs qədər sağlam əsaslara malik olan millətlər beynində [arasında] onun daha fəyyaz [bərəkətli] olmasına biz inanırız. Bu nöqteyi-nəzərdə "Tan"ın da bizimlə müştərək olmasına etiqadımız bərkamaldır [tamdır, nöqsansızdır]. Hərgah fürsətdən istifadə ilə biz rəyimizi söyləyirizsə, onu da başlıca olaraq məqalənin başqa təkdiramiz [məzəmmətə layiq] cəhətlərinə cavab vermək üçün ediriz.*

*Şimdi keçəlim rəfiqimizin qeyd etdiyi qərara.*

*1914-cü sənə sonbaharında Hicazın müstəqil kralı ilə Britaniya hökumətinin etilaf əqd etdiyini [saziş imzaladığını] iqrar [təsdiq, etiraf] edərək (1916-cı sənə müahidəsi əqd edilərkən ol xüsusda Fransaya məlumat verilməmişdi) "Tan" İngiltərə-Fransa müahidəsinin yenidən baxılmasını təklif edir. Fransaya verilən ərazinin məkan və sərhədini dəyişmək olar. Bu, mümkündür və hərgah Suriya əhalisinin əksəri Hicaz kralı oğlu əmir Faysalın sultanlığı altında Suriyaya muxtariyyət ətasını arzu edərsə, o zaman bu şərait daxilində Suriya mandatını Fransa üçün Cəmiyyəti-Əqvamdan almağa Britaniya hökuməti müavinət də edə bilər.*

*Bu təkliflər keçən kanuni-sanidə [yanvarda] əmir Faysalın Sülh Konfransına buraxıldığı zamandan bəri edilən təkliflərdən pək də fərqli deyildi. Hərgah onları yenidən mövzuyi-bəhs [mübahisə mövzusu] etmək arzu edilərsə, o zaman onların rəsmi olaraq təhriri [yazılı] bir şəklə ifraqı [salınması] daha məqul [məntiqli] olardı. Zira nim-rəsmi [yarı rəsmi] şifahi müzakirələrin bu vaxta qədər üqdəni [düyünü] bir dürlü açammadığı görükməkdədir. Əsasatın [prinsiplərin] bu qədər təbəddülata [dəyişikliyə] uğradılması bəs deyilmidir? Mütarikə əqdi zamanından bəri Şərqdə saheyi-vücuda çıxmış hadisatı görərək məsələnin müzakirəsi ruhunu təbdil etmək [dəyişdirmək] arzusunu biz fransızlar hiss etməyirizmi?*

*Nə müharibə zamanı və nə də müharibədən sonra Fransa Şərq millətləri üzərində hakimiyyətini intişar etmək [yaymaq] sevdasına düşməmişdir. 1916-cı sənə müahidəsi bizim nəzərimizdə ancaq hüdud müəyyən edirdi. Və onunla şərqlilər İngiltərə və Paris nüfuzu altından çıxaraq, Fransanın təmə və hirsdən arı [tamah və acgözlükdən uzaq] müavinəti ilə təşkilat və mədəniyyətin ən yüksək təbəqələrinə qədər azadəsər [sərbəst] olaraq irtiqa edə [ucala] biləcəklərdi. Hər bir əqli-səlim [məntiq, sağlam düşüncə] sahibi olan fransız mütməin [əmin] olmuş ki, Fransa Afrikada üzərinə götürmüş olduğu kimi, Şərqdə gərək zabit [təhlükəsizlik*





*təmin edici] və gərəksə hərbi bir məsuliyyət öhdəsinə götürməməlidir. Və əlavəbərin [buna əlavə olaraq], təcrübə də göstərir ki, müsəlman Asiyası kəndisinə vahid bir mərbutiyyət [bağlılıq] tələb edir.*

*Ərəblərlə edilən rəftarın eynisini türklər və ya kürdlər haqqında tətbiq etmək yarayan işlərdən deyildir, İran əhalisinin əksəri şiəyül-məzhəb [şiə məzhəbli] olduğuna görə, oraya başqa bir nəzərlə baxmaq icab edir [lazım gəlir] kimi bəhanə və üzrlərə gəldikdə, əmri-vaqelər [faktlar] bu zəhabın [zənnin] səfsətə olduğunu isbat edir. Ərazisi İngiltərə əsakiri [əsgərləri] ilə işğal edilmiş İran hökuməti ilə İngiltərənin əqd etdiyi müahidə xəbərinin istər İstanbul türkləri, istərsə Bağdad ərəbləri içində nə kimi bir həyəcan tövlid etməsinə [əmələ gətirməsinə] bir kərə ətfi-nəzər edilərsə [nəzər salınarsa], şu fikrin yanlışlığı meydana çıxar.*

*Məmafih [bununla belə], mütarikə əqdindən bəri bütün müsəlman millətləri get-gedə xarici hökmranlığı altına düşmədədirlər. İran bu zəncirin axırıncı halqəsi olmuşdur. Beynənnəhreyn Britaniya məmurlarının bilavasitə idarəsi altına keçmişdir. Britaniya zabitan və məmuranı [məmurları] Fələstin, Suriya və Kürdüstanın hakimi-mütləqi olmuşlardır. Asiyayi-Süğra [Anadolu] ingilis generalı komandasına tabe edilmişdir. İngilis generalı İstanbul və Boğazlar idarəsi başında durmuşdur. Və hərgah Türkiyənin Asiya və Avropada olan vilayətləri taleyinin qəzası başqa isə, o zaman şu dəyişiklik ancaq bir əfəndinin [ağanın] hakimiyyətini bir qaç əfəndi arasında təqsim etməkdən [bölüşdürməkdən] ibarət olacaqdır.*

*Biz işbu halda vəziyyəti-hazirəni tövlid edən [meydana gətirən] amilləri aramaq vəzifəsi ilə iştigal etməyiriz [məşğul olmayırıq]. Biz onun nəticələrini tənqid etmək arzusunda da deyiliz. Biz ancaq Fransanın arzu və rizası olmadan vüqu bulmuş əmri-vaqeni və Müttəfiqin [Müttəfiqlər] mənafe və prinsiplərinə müğayir [zidd] sandığı siyasətdə onun iştirak etməsi mümkün olmadığını qeyd etmək istəyiriz.*

*Müttəfiqin millətlər istiqlalı üçün müharibə edirlərdi, onların qalibiyyəti Asiyada olan müsəlman istiqlallarını və ya istiqlal yolunda atılan addımları, edilən təşəbbüsləri boğmamalıdır. Bu, nəhayət dərəcədə ədalətsizlik olduğu kimi, o qədər də müdhiş və təhlükəlidir. Binaənileyh [ona görə], Suriya üçün xəritədə yeni hüdudlar təxtit etmək [cızmaq] kafi deyildir. Bu feil 1916-cı sənədə lazım olaraq qanuni bəraət kəsb edirdi [qazanırdı]. Bu zaman Osmanlı dövləti Almaniya hakimiyyəti təhtində [altında] olarkən, məhəllində [yerində] istixlaskaranə [xilasedici] təşəbbüslərdə bulunmaq qeyri-mümkün olduğu üçün Müttəfiqin arasında təqsimi-vəzaif etmənin [vəzifə bölgüsü aparmağın] lüzumu var idi. Hal-hazırda isə övza [vəziyyət] bambaşqadır. Millətlərin kəndi müqəddəratları idarəsini kəndi əllərinə tövdi etmək [almaq] imkanı vardır. Onların istiqlallarına Müttəfiqinin ehtiram etməsini isbat etmək vacibdir. Onların müqəddərati-atiyyəsini [gələcək müqəddəratını] mövzuyi-bəhs [mübahisə mövzusu] etmədən irəli, istedadlarını ibraz etmək [göstərmək] üçün onlara meydan verilməlidir.*

*Britaniya məmurları əmir Faysala müavinət edərək onu müsəlləh edirlər [si-*

*lahlandırırlar]. Onların rəyincə, Suriya ona itaət etməyə hazır və onlar da onu idarə etməyə müstəiddirlər [qabildirlər]. Onlar bəyan edirlər ki, hərgah 1916-cı sənə müahidəsi ilə Fransaya tərk edilmiş Dəməşqdə, Hələbdə və Suriyanın başqa yerlərində fransızlar ingilisləri əvəz edərlərsə, ciddi iğtişaşlar baş verə bilər. Bu nəzəriyyəni inkar etməməklə bərabər, ondan məntiqi bir məna və xülasə çıxarılmasını biz rica ediriz.*

*Qoy Britaniya əsakiri [qoşunu, əsgərləri], əvəzlərinə Fransa əsgərləri göndərilmədən, Dəməşq və Hələb dairələrini bilatəxir [dərhal] təxliyə etsinlər. O zaman əmir Faysal həqiqi bir hakimiyyətə malik ola bilər. Livan və səvahil iskələlərindən də [sahil limanlarından da] həmçinin ingilislər gedərək, xristian əhalisini hər dürlü təhlükələrdən mühafizə etmək üçün Fransa qarnizonu azacıq artırılsın. Hərgah əmir Faysal intizamı mühafizə edərək daxili-məmləkətdə [ölkə daxilində] sülh və müsalimət [əmin amanlıq] təmin edə bilərsə, o zaman Fransa dövləti izhar edilən müsəlman istiqlalı məfkurəsinə xələl yetirmədən onlarla etilafa [sazişə, razılaşmağa] asanlıqla girişə bilər."*

**DAĞISTANDA**

- Petrovskda nəşr olunan "Russkaya mısl" qəzetəsi xəbər verir:

Oktyabr ayının 3-də səhərdən üsyançıların üç tərəfdən Teymurxanşuraya hücumu başlanmışdır. Üsyançılar ixtiyarında dörd böyük top var imiş. Bunlar top, tüfəng və pulemyot atəşləri ilə qarşılanmışlardır. Üsyançılar tərəfindən Teymurxanşura ilə Petrovsk arasında olan telefon xətti kəsilmiş və bir neçə yerlərdə dəmiryolları xarab edilmişdir. Rus qoşunlarının hissələri dəmiryolunu işğal etmiş olan üsyançılar üzərinə hücuma keçərək, onları pərakəndə etmişlərdir. Üsyançılar tərəfindən 40-a qədər meyit sayılmışdır.

Oktyabrın 4-də üsyançılar yenidən hücuma keçmək istəmişlərsə də, yenə həzimətə [məğlubiyyətə] düçar olub, bütün xətti-hərbdən geriyə çəkilmişlərmiş. Dəmiryol və telefon xətləri Teymurxanşura ilə Petrovsk arasında yenidən bərpa edilmişdir.

Qəzetə Teymurxanşuraya sahib olmaq amalının qətiyyən qeyri-mümkün və puç olduğunu güman edir.

- Aldığımız məlumati-mövsuqəyə məbni [mötəbər məlumatlara əsasən], Dağıstanın şimdiki əhvalı bu şəkildədir:

Dağıstan paytaxtı Teymurxanşura şəhəri rəsmi surətdə dabravolların əlində isə də, üç tərəfdən üsyançılarla mühasirə edilmişdir. Şəhərdə su və yemək çoxdur. Bu günlərdə vüqusu [baş tutması] ehtimal edilən böyük müharibə məsələni həll edəcəkdir.

Dərbənd şəhərinin qismi-əzəmi [böyük hissəsi] üsyançılar əlində isə də, dənizkənarı vağzal dairəsi dabravolların əlindədir. Üsyançılar təşkilatı gündən-günə kəsbi-qüvvət edir [güclənir]. Üsyançıların ruhu pək yüksəkdir. Bu günlərdə Ramazanov nam [adlı] bir Dağıstan zabiti xüsusi qərəzdən naşi [şəxsi qərəzə görə] qətl edilmişdir.

Üsyançıların silahları çoxdur. Çeçenistanda dəxi üsyan qalxmışdır. İnquşistanın bir çox hissələrində də üsyan qalxmaq üzrədir.

**NƏZARƏTLƏRDƏ**
**[NAZİRLİKLƏRDƏ]**

- Vükəla Şurası [Nazirlər Kabineti] telefon xəttindəki tətili təsviyə etmək [aradan qaldırmaq] məsələsini Məsai Nəzarətinə [Əmək Nazirliyinə] tapşırmışdır.

- Maarif Nəzarəti tərəfindən bir pedaqoji məcmuəsi nəşr və təbinə [çapına] dair bir qanun layihəsi tərtiblə, Vükəla Şurasına idxal edilmişdi. Şurada layihə təsvib edildiyindən [bəyənildiyindən], bu günlərdə Məclisi-Məbusana idxal ediləcəkdir.

- Daxiliyyə Nəzarəti sabiq mənzilindən, məzkur Yusif Dadaşovun dəniz kənarındakı evinə köçmüşdür.

**ZƏNGƏZUR MƏSƏLƏSİ ÜSTÜNDƏ**
**ERMƏNİSTAN İLƏ AZƏRBAYCAN**
**ARASINDAKI MÜRASİLAT**
**[RƏSMİ MƏKTUBLAŞMA]**

**Ermənistan Cümhuriyyəti hökuməti nəzdində olan Azərbaycan Cümhuriyyəti siyasi nümayəndəsi cənablarına**

28 eylül [sentyab] 1919 sənə, nömrə 93

Axır zamanlar içində erməni hökumətinə Azərbaycanın hərbi hazırlıqlarda bulunduğunu, Azərbaycan hökumətinin müntəzəm ordusu və yerli müsəlman əhalisinin iştirakı ilə ehzar edilmiş qüvayi-müsəlləhə [hazırlanmış silahlı qüvvələr] vasitəsilə Britaniya Ali Komandanlığı tərəfindən Zəngəzur Şurayi-Millisi təhtiidarəsinə [idarəsi altına] verilmiş Zəngəzur qəzasının cəbrən [zorla] işğal ediləcəyini mütəzəmmin mütəəddid əxbarat [ehtiva edən çoxsaylı xəbərlər] yetişmədədir.

Xüsusən bu gün Ermənistan hökumətinə yetişmiş xəbərlərə nəzərən, Azərbaycan əsakiri [əsgərləri] kürd əşqiyaları [soyğunçuları] və yerli müsəlman əhalisi iştirakı ilə Arazın cənubi dərəsi Qarababa, Aqaraq, Yeğvart istiqamətində və Naxçıvan ətrafında Meğri dairəsində hücuma başlamışlardır. Böyük qan tökülməyə mübəddəl olmaq [çevrilmək] təhlükəsi dərkar olan [daşıyan] şu hərəkat Ermənistan hökuməti tərəfindən etinasız buraxılammaz. Axırıncı fəqərə [hadisə] məni məcbur edir ki, hökumətim namından olaraq sizdən rica edim, fövqdə məzbur əxbaratın [yuxarıda deyilən xəbərlərin] doğruluğunu bilmək üçün təcili olaraq teleqrafla hökumətinizdən izahat istəyəsiniz. Və hərgah doğru isə, o zaman müsadimənin bilatəxir dəfi [toqquşmanın dərhal aradan qaldırılması] üçün və əks surətdə Zaqafqaziyada ümumi bir yanğın tövlid edə [meydana gətirə] biləcək hadisənin önünü almaq üçün hökumətiniz tərəfindən nə kimi tədabir ittixaz edilmişdir [tədbirlər görülmüşdür]?

Ermənistan hökuməti Azərbaycan əsakirinin Zəngəzur tərəfə olan hərəkatına şu nəzərlə baxaraq sizdən rica edir ki, vaxtın qayət mühüm olmasından naşi [ötrü], işbu sorğunu qeyri-qabili-təxir [təxirəsalınmaz], təcili ədd [hesab] edəsiniz. Və həm-

çinin hökumətiniz tərəfindən verilən cavab xüsusunda mənə səriyyən [sürətlə] məlumat vermənizi də rica edirəm.

*Xariciyyə naziri: A. Xatisov*
*Siyasi şöbə müdiri: Yakovlev*
*Kargüzar: Çerbaşyan*

**Ermənistan Cümhuriyyəti Hökuməti Xariciyyə naziri cənablarına**

2 təşrini-əvvəl [oktyabr] 1919, nömrə 912

1919 sənə 28 eylül tarixli və 93 nömrəli teleqrafla bittamam [tamamilə] Bakıya işar edilmiş [bildirilmiş] olan notanıza cavabən Azərbaycan Cümhuriyyəti Xariciyyə nazirindən atidəki [aşağıdakı] teleqrafnaməni almışam:

*"Ermənistan Cümhuriyyəti Xariciyyə nazirinə elam ediniz [bildiriniz] ki, Zəngəzur qəzası Azərbaycan ərazisi daxilindədir. Binaənileyh [ona görə], notada edilən istizah [sorğu] Azərbaycan Cümhuriyyəti daxili işlərinə qeyri-məqbul [qəbuledilməz] bir müdaxilə etmək deməkdir. Azərbaycan hökuməti, Cümhuriyyətinin ayrı-ayrı nahiyələrində daxili idarə işləri üçün lazımi tədabir ittixaz etməsi xüsusunda Ermənistan hökumətinə cavab verməyə kəndisini müvəzzəf əдд etməyir [borclu hesab etmir]."*

Fövqdə məzbur fəqərəni [yuxarıda qeyd edilən faktı] zati-alilərniz hüzurlarına ehtiramla irsal edərək [göndərərək], ehtiramati-faiqəmin [ali ehtiramlarımın] qəbulunu rica edirəm.

*Ermənistan Cümhuriyyəti hökuməti nəzdində Azərbaycan Cümhuriyyəti siyasi nümayəndəsi:*
*[Əbdürrəhim bəy] Haqverdiyev*
*Müstəşar [müşavir]: Səfərov*
*Katib əvəzinə: [Miryusif] Mirbabayev*

**Azərbaycan Cümhuriyyəti Xariciyyə naziri cənablarına**

İrəvanda olan siyasi nümayəndəniz vasitəsilə Azərbaycan əsakirinin Zəngəzur dairəsindəki hərəkati-təcavüzkaranələri münasibətilə erməni hökuməti istizahına [sorğusuna] verdiyiniz 1919 sənə 2 təşrini-əvvəl [oktyabr] tarixli və 912 nömrəli notanıza cavab olaraq kamali-ehtiramla bərvəchi-ati [aşağıdakı kimi] ittila [xəbər] verirəm:

Azərbaycan Cümhuriyyəti hökuməti Zəngəzur qəzasını Azərbaycan Cümhuriyyətinin ayrılmaz hissəsi əдд [hesab] edir və ona görə də Azərbaycan hökuməti ittixaz etdiyi tədabir xüsusunda məlumat verməyə kəndisini müvəzzəf bilməyir, yollu bəyanatınız hər iki hökuməti hal-hazırda şiddətlə maraqlandıran məsələnin əsl və əsasını şərh və həll etməyir. Məsələ hal-hazırda bu, ya şu məhəlli [yeri, ərazini], dövlətlər ərazisinə mülhəq etmək [birləşdirmək] xüsusunda olmayıb, ancaq eyni zamanda iki Cümhuriyyətin iddiada bulunduğu müxtəlif nahiyələrdə bəklənilən qanlı hadisələri bərtərəf etmək [aradan qaldırmaq] üçün müvəqqəti bir idarə təşkil etmək üçündür.

Dəfələrcə bəyan edildiyi üzrə, şu fəqərəni də [faktı da] dərnəzər etməlidir [nəzərə almaq lazımdır] ki, Ermənistan Cümhuriyyəti də həmçinin Zəngəzur qəzasını Ermənistan ərazisinin ayrılmaz bir hissəsi sanır. Binaənileyh [ona görə], sizin bəyanatınız sırf rəsmi bir mahiyyəti haiz olaraq [daşıyaraq], ingilis komandanlığı tərəfindən sabiq Zaqafqaziya ölkəsinin müxtəlif nahiyələrində və xüsusən Zəngəzur qəzasında bu ya o hökumətin təyini qərarına zidd və heç bir sağlam əsasa məbni olmadığından [söykənmədiyindən], münaqişəli məsələləri sülhlə həll etmək üçün iki hökuməti yek-digərinə [bir-birinə] yaxınlaşdırmayır; hansı ki, bu yaxınlıq Azərbaycan Cümhuriyyəti hökumətinin bəyanatına görə qonşu dövlətlər arasında münasibati-dostanə bərpa etmək üçün yeganə bir vasitədir. Və bu günlər Ermənistan hökuməti nəzdində olan hökumətiniz nümayəndəsi ilə mən müsahibədə bulunarkən bu fəqərə təsdiq və mənim tərəfimdən də təbrik edilmişdi.

Ermənistan Cümhuriyyəti hökuməti yenidən bəyan etməyi lazım bilir ki, Zəngəzur qəzasını cəbrən [zorla] zəbt etmək hərəkatının, nəhayət qanlı nəticələrə müncər olmaq [gətirib çıxarmaq] təhlükəsi dərkardır. Və onun məsuliyyəti də labüdən Azərbaycan hökuməti üzərinə düşəcəkdir.

Ermənistan hökuməti kəndi tərəfindən yenidən münasibati-dostanə nöqteyi-nəzərində dayanaraq etiqad edir [inanır] ki, Azərbaycan hökuməti bütün yarım sənəlik bir vaxt zərfində diplomasi əlaqələri mövcib olan [qaçılmaz edən] məsələnin cəbrən həll edilməsi iqdamatından [addımlarından] kəndisini saxlar.

Ermənistan hökuməti kəndi tərəfindən məsələnin iki Cümhuriyyət arasında ixtilafa bais olan cəhətlərini birlikdə müzakirə edərək və hər iki Cümhuriyyət mənafeyi üçün məqbul və layiq çarələr aramağa hazırdır.

Ermənistan Cümhuriyyəti hökuməti xüsusunda əlavə məlumat verəcəkdir.

*Xariciyyə naziri: Xatisov*
*Siyasi şöbə müdiri: Yakovlev*
*Kargüzar: Çerbaşyan*

## ÇÖRƏYİN BAHALANMASINA QARŞI

Son günlər Bakı bazarında çörək gündən-günə bahalanmaqdadır. Bu xüsus gərək hökumət dairələrini, xüsusən aid olduğu Ərzaq Nəzarətini və gərəksə ictimai dairələri və mətbuatı ziyadəsincə işğal etməkdədir. Hər kəs füqəranın halını nəzərə alır və buna bir çarə yolu arayır. O cümlədən, bu barədə ən artıq mənfəətdar və əlaqədar olan Ticarət, Sənaye və Ərzaq Nəzarəti bu xüsusu düşünür və çarələr arayır.

Çörəyin bahalanmasına ümdə səbəb olaraq məhəlli [yerli] bazarda un və taxılın az olduğunu nəzərə alaraq, Nəzarət birinci növbədə Bakı bazarını lazımi miqdarda un və taxıl ilə təchiz etmək çarələrini görür.

Məlumdur ki, Azərbaycan hər bir cəhətdən az bir istisna ilə kəndisini idarə edəcək, kəndi ehtiyacını ödəyəcək dərəcədə sərvətə malikdir. Xüsusən ziraət [kənd təsərrüfatı] işlərində vətənimiz öylə bir haldadır ki, ziraət işləri nizam və qaydaya salınaraq qaçaqçılıq və ehtikarın [möhtəkirliyin] önü alınacaq olarsa, heç şübhəsiz, nəinki bütün Azərbaycan bolluqla çörək yeyər, hətta qonşularımıza da taxıl sata bilər. Odur ki, Muğanda, Lənkəran qəzasında, Qarabağda, Qazax mahalında bu qədər taxıl olduğu halda oralarda çörək ucuz ikən, Bakıda birdən-birə girvənkəsinin 7 manata qədər qalxması cayi-təəccübdür [təəccüb doğurur].

Doğrudur, Ərzaq Nəzarəti Bakıda taxılın azlığını səbəb görərək Muğandan və Lənkəran qəzasından taxıl çıxarılmasının mən'i [qadağan edilməsi] haqqındakı qə-

rarnaməni ləğv edib, Bakıya və Azərbaycanın sair yerlərinə gətirilməsinə izin vermişdir. Digər tərəfdən, eyni Nəzarət Qarabağ general-qubernatoruna müraciətlə, Qarabağdan Bakıya taxıl gətirilməsinə izin verilməsi və sərhədin açılmasını istəmişdir. Bir də, ən əhəmiyyətli tədbir olmaq üzrə Ticarət, Sənaye və Ərzaq Nəzarətində bir müşavirə vaqe olaraq, təcili surətdə Mərkəzi Ev Komitəsi, Kooperasiya, Bakı Neft Mədənçiləri Sovet Syezdi və Ərzaq Nəzarətinin birləşərək müttəhidən [birgə] taxıl alıb ucuz qiymətlə camaata verilməsi təhti-qərara alınmışdır.

Nəhayət, Ticarət, Sənaye və Ərzaq Nəzarətinin digər bir təşəbbüsünü də qeyd etməlidir ki, onun da çörək məsələsinə təsiri olacaqdır. O da Kuban ilə mübadileyi-əmval [mal mübadiləsi] haqqında Ümumrusiya Zemstvo İttifaqı vəkili ilə əlaqəyə girişilməsidir. Kuban ilə etilaf [razılıq] əmələ gəldikdə, oradan Azərbaycana un, buğda, mıx, dəmir və sair şeylər gətiriləcək, müqabilində Azərbaycandan bez, neft və sair aparılacaqdır.

Şübhəsizdir ki, bütün bu tədbirlərin Bakı məzənnəsinə çox təsiri olacaq və çörək tez zamanda çox ucuzlaşacaqdır. Fəqət məsələ yalnız çörəyin bahalanması deyil, bütün şeylər son zaman, daha doğrusu, qulluqçuların maaşı artandan bəri gündən-günə tərəqqi edir. Hər məmur şimdi ayda 300-500 manat artıq maaş alır. Bunun müqabilində gündə 20-60 manat fəzlə bahalıq pulu xərcləyir.

Deməli, bahalığın səbəbi yalnız Bakı bazarında un az olması deyil, onunla bərabər sair məsələ dəxi vardır ki, ona da əhəmiyyət və diqqət verməmək olmaz. O da pulumuzun kursu məsələsidir. Bu xüsusa Maliyyə və Ərzaq nəzarətləri böyük əhəmiyyət verməlidirlər.

Bu işlərdə Maliyyə Nəzarətinin vəzifəsi məlumdur. Ərzaq Nəzarətinin rolu isə bir tərəfdən kursun artması işlərində Maliyyə Nəzarətinə kömək, digər tərəfdən də malların ucuzlaşması uğrunda alış-verişçilərlə mübarizədən ibarət olmalıdır. Möhtəkirlərlə mübarizə məsələsində qismən dövləti inhisar tətbiqi dəxi kömək edə bilər. Fəqət bu tədbirin özünün o qədər vəxim [təhlükəli] sui-nəticələri dəxi olur ki, onun tətbiqi o qədər də müvafiq və münasib deyildir. Odur ki, bu məsələdə Ticarət, Sənaye və Ərzaq Nəzarətinin ümdə vəzifəsi bazar qiymətini nizam və qaydaya salmaq və tacirlərlə rəqabət etməkdən ibarət olmalıdır.

Bunun üçün məzkur [deyilən] Nəzarət bir tərəfdən birinci zəruri şeylərə sabit qiymət qoyub əməl olunmasını da təqib etməli, digər tərəfdən də kərratla [dəfələrlə] Parlamanın da arzu etdiyi vəchlə [arzu etdiyi kimi], mümkün olan qədər çox miqdarda zəruri şeylər alıb yığmalı və möhtəkirlərin iştahası ifrata vardıqda, kəndisi tərəfindən toplanmış malı bazara buraxaraq rəqabət etməlidir. Bunun bazara nə qədər hüsn-təsiri olduğunu keçənlərdə bir fəqərə [hadisə] bir daha isbat etdi: bazarda qənd 85, şəkər (pesok) 50-60 manata qalxmışdı. Nəzarət kəndi anbarlarından şəkər buraxar-buraxmaz üç gündə qənd 45 və şəkər 18 manata endi. İştə, möhtəkirlərlə mübarizə yolu!

Maliyyə Nəzarətinə pulumuz kursunun qalxmağına kömək məsələsinə gəlincə, burada Nəzarətin ən yaxşı köməyi xətti-hərəkətini dəyişməsi ilə olar. Məlum olduğu üzrə, bu vaxtadək Azərbaycan xaricə mal buraxarkən ancaq mübadilə şərti ilə buraxır.

Təsəvvür ediniz, bir Azərbaycan taciri bir məmləkətdə, məsələn, neft satır. Müqabilində Azərbaycan parası verirlər. "Pulu nə edəcəyəm, çit ver!" deyə öz pulumuzu qəbul etməyir. Bir saat sonra eyni əcnəbi taciri gəlib Azərbaycan ticarət agentinə bir mal satır. Müqabilində ona öz pulumuzdan təklif ediriz. O halda əcnəbi taciri bizim agentimizə nə deyər və pulumuzu hankı kurs ilə qəbul edər?

Bu surətlə ixracatımızın mübadilə ilə məşrut tutulması [şərtləndirilməsi] pulumuzun kursuna bu qədər sui-təsir edir. Buna görədir ki, Ticarət, Sənaye və Ərzaq Nəzarəti əvvəla mal mübadiləsini məcburi etməməli, saniyən [ikincisi], sair məmləkətlərdəki agentəliyi vasitəsilə mal aldıqda və satdıqda mümkün olan qədər əcnəbilərdən ancaq Azərbaycan pulu qəbul etməli və əcnəbi məmləkətlərdəki tacirlərimizə valyuta məsələsində öylə müavinət etməlidir ki, tacirlərimiz əcnəbilərdən mal alarkən bazara düşüb lirə, frank və qeyrə arayaraq kursların düşürülməsinə səbəbiyyət verməyə məcbur olmasınlar. Böylə olarsa, əcnəbi tacirləri pulumuzu "heç" deyil, təmin edilmiş və müqabilinə hər şey verilən bir pul kimi tanıyaraq "nə edəyim" deməzlər. Burası da, şübhəsiz, kursumuzun möhkəmləşməsinə və tərəqqisinə bais olar.

Eyni zamanda, bu surətlə Ticarət, Sənaye və Ərzaq Nəzarəti kənarlarda, ciblərdə yatan pulumuzu xəzinəmizə cəlb və müamilata [maliyyə əməliyyatlarına] sövq etməklə, həddindən ziyadə kağız pul kəsilməsini təhdid etmiş [məhdudlaşdırmış] olar. Bunun da gərək kursumuza, gərək, ümumiyyətlə, maliyyatımıza və dolayısı ilə malların tənəzzülünə nə qədər təsiri olacağı gün kimi aşkardır.

Bu surətlə, çörək bahalığı müqabilinə Nəzarət tərəfindən görülən tədbirlər nə qədər xeyirli isələr də, qəti çarə olmayıb, ancaq səthi və müvəqqət tədbirdir. Qəti çarə isə möhtəkirlə rəqabət və kursun yüksəlməsi üçün Maliyyə və Ticarət, Sənaye və Ərzaq nazirlərinin bu yollu çalışmalarından bəklənməlidir.

*Xəlil İbrahim*

## BAKI XƏBƏRLƏRİ

### Yeni Qazax general-qubernatoru

Daxiliyyə nazirinin binagüzarlığı [sərəncamı] ilə Bakı vis-qubernatoru polkovnik Əmir xan Xoyski Qazax general-qubernatorluğuna təyin edilmişdir. Mümaileyh [adı çəkilən] əfəndi dün axşam sürət qatarı ilə məmuriyyəti yerinə mütəvəccihən [üz tutuaraq] Bakıdan hərəkət və əzimət etmişdir [yola düşmüşdür].

### Təyin

Qazax general-qubernatorluğuna təyin edilmiş olan Bakı vis-qubernatoru Əmir xan Xoyskinin yerinə qubernatorun ikinci müavini Xankişi bəy Qafarov təyin edilmişdir.

### Rüşvət üstündə tövqif

Azərbaycan Baş Mülkiyyə müfəttişinin binagüzarlığı [sərəncamı] ilə Bakı qubernatorunun xüsusi işlər məmuru Vissarion Mikadze, Quşmaşon pristavından

14 min manat rüşvət alıb haqqında qubernatora yanlış məlumat verdiyinə görə, srağagün tövqif [tutulmuş] və Mərkəzi Həbsxanada məhbus edilmişdir.

**Göyçaydan taxıl aparılması haqqında**

Göyçay uyezd naçalniki Bakı qubernatoruna müraciətən rica etmişdir ki, Göyçayda bəzi şəxslər tərəfindən külli miqdarda taxıl alınıb Bakıya və Gəncəyə aparıldığından, taxılın qiyməti artmağa başlamış və az zaman sonra aclıq zühur etməsinə ehtimal hiss edildiyindən, məzkur [adı çəkilən] uyezddən taxıl çıxarılmasını qadağan etmək üçün bir qərardadi-məcburi sadir olunsun [məcburi qərardad verilsin]. Göyçay uyezdində bu il taxıl məhsulatının az olduğunu naçalnik ayrıca elan edir.

**Əcnəbi lisanlarını tədris**

Türkcə, fransızca, ərəbcə lisanları.

Şaxski küçədə 4-cü çastın həyətində, gecələri saat 7-dən 9-a qədər türkcə, fransızca, ərəbcə dərslər tədris ediləcəkdir. Bu üç lisanı 6 ay zərfində oxuyub yazmağı müəllim dəröhdə etməkdə olduğundan [öhdəsinə aldığından], dərs almaq istəyənlər məzkur [deyilən] həyətə müraciət etsinlər.

**Ticarət portunda**

Ticarət portu müdiri elam etmişdir [bildirmişdir] ki, icbari qərardadı pozmaqda müttəhim edilənlərin işlərinə bilavasitə portda baxılacaqdır. İşi olanlar düşənbə [bazar ertəsi] və pəncşənbə [cümə axşamı] günləri saat 9-dan 12-yədək məzkur port idarəsinə müraciət etməlidirlər.

**Məmaliki-əcnəbiyyədən gələn gəmilər haqqında**

Ticarət portu elam etmişdir [bildirmişdir] ki, məmaliki-əcnəbiyyədən [xarici ölkələrdən] gələcək mallardan gömrük almaq qəsdi ilə gəmilər bilavasitə 20 nömrəli körpüyə yanaşmalıdırlar ki, orada təhqiqat edilsin. Ondan sonra fəqət gəmilər başqa körpülərə yanaşa biləcəklərdir.

**Bələdiyyə İdarəsində**

Bələdiyyə İdarəsi Şəki Bələdiyyə İdarəsinin sualına cavabən məlum etmişdir ki, Bakı Bələdiyyə İdarəsi zemski [yerli özünüidarə qurumuna məxsus] vergilər yığmadığı kimi Bələdiyyə İdarəsi xəzinəsinə böylə vergi daxil olmayır.

**Asiya vəbası**

Bələdiyyə İdarəsi Səhhəti-Ümumiyyə Nəzarətinə məlum etmişdir ki, Tiflisdən bu günlərdə varid olmuş [gəlmiş] 52 sinnində [yaşında] bir qarı vəbaya oxşar bir xəstəliklə xəstələnir. Müayinə nəticəsində qarının Asiya vəbasına tutulması anlaşılmışdır. Əlavə, iki nəfər də şübhəli olaraq xəstələnmişlərdir.

**Dövləti məktəblərdə füqəra çocuqları**

Bələdiyyə İdarəsi Maarif Nəzarətinə bir təliqə [rəsmi məktub] göndərərək məlum etmişdir ki, dövləti məktəblərdə fəqir mütəəllimlərin [şagirdlərin] maddi cəhətləri təmin edilmək məsələsi əsasən bitdiyi üçün məzkur məsələyə dair nə qədər məlumat və material varsa Bələdiyyə İdarəsinə göndərilməsi mərcudur [xahiş olunur].

**Küçələrin təmizlənməsi haqqında**

Bakı qradonaçalniki Bələdiyyə İdarəsindən küçələrin təmizlənməsi haqqındakı tədabirə [tədbirlərə] dair məlumat istəmişdi. Bələdiyyə İdarəsi buna cavabən xəbər vermişdir ki, qubernatorun 6 mayıs qərardadı mövcibincə [qərardadına əsasən] küçələrin evlərə yaxın olan hissələri dvorniklər [dalandarlar] tərəfindən təmizlənməli idi. Halbuki bu qərardada şəhərin fəqət [sadəcə] mərkəzi hissələrində riayət olunur, kənarlarda isə riayət olunmayır. Şəhərin hal-hazırda 200-dək süpürgəçisi vardır ki, fəqət şəhəri cümədən başqa hər gün süpürürlər. Mənzillərdən isə zibil həftədə bir dəfə aparılır. Bazarlar Bələdiyyə İdarəsinin süpürgəçiləri tərəfindən təmizlənməkdədir. Şəhərin nəqliyyat arabalarının fəaliyyəti gündən-günə artmaqda olduğunu küçələrin təmiz olduğundan görmək olar.

**Bakı əhalisinin miqdarı**

Xariciyyə Nəzarətinin sualına cavabən Bələdiyyə İdarəsi xəbər vermişdir ki, 19-19-cu sənənin əvailində [əvvəllərində] təxminən Bakı şəhərində 238 min 167 nüfus [əhali] vardı. Milliyyət haqqında Bələdiyyə İdarəsi doğru məlumat verməkdən acizdir. 1917-ci sənədə isə şəhərdə rusların miqdarı 77.123, erməni 52.184, gürcü 4.073 nəfər, lehlər [polyaklar] 1.982 nəfər, alman 2.777 nəfər, yəhudi 12.427 nəfər, azəri türklər 67.190 nəfər, Kazan tatarları 1.203 nəfər, iranlı 11.904, ləzgi 700, başqa Qafqaziya millətləri 299, başqa millətlərə mənsub 231 nəfər, cümlətanı 234.177, mabaqisi [qalanları] isə Bakıdan müvəqqəti çıxmışdılar.

**Bələdiyyə İdarəsi və hamamçılar**

Müsəlman hamamçıları Şollar suyu qiymətinin artmasından naşi [artmasına hörə] Bakı qradonaçalnikinə bir istida [ərizə] verərək bu xüsusda tədabir ittixazını [tədbirlər görülməsini] rica etmişlərdi. Bələdiyyə İdarəsi qradonaçalnikə xəbər vermişdir ki, işbu qərardad çoxdan bəri Bələdiyyə Məclisi tərəfindən qəbul edildiyi üçün dəyişəmməz. Hamamlardakı fiyat nəzərə alınarsa (adambaşı 5 manatdan fəzlə) su vedrəsinin qiyməti pək ufaqdır [çox kiçikdir].

**Qaradonludan**

Qaradonlu yüzbaşısı Hərbiyyə naziri Mehmandarova teleqrafla xəbər vermişdir ki, əsgərlikdən qaçmış Murtuza Yəhya oğlu Qaradonludadır, binagüzarlığınızı [sərəncamınızı] bəkləyirəm. Nəzarət işbu xüsusda Bakı qubernatoruna müraciətlə rica etmişdir ki, hamı polis məmurlarına məlum etsin ki, tövqif edilən [tutulan] fərariləri yaxın Əxzi-əsgər [Hərbi çağırış] idarəsinə verməlidirlər.

**Tatar xanəndəsi**

Daxili Rusiya tatar xanəndələrindən Əziz Əlməhəmmədov bu günlərdə şəhərimizə vürud edib [gəlib] bu yaxınlarda bir konsert verəcəkdir.

**Birjada**

Kerenski minlik 1.050 manat, 250-lik faizsiz və xırda kəndi qiymətindən 5 faiz aşağı gedir. Nikolay parası ru-bə-tərəqqi olaraq [artmağa üz tutaraq] 500-lüyü 1.650 manat, 100-lüyü 325 manat və xırdası 75 faiz qiymətindən yuxarıdır. Gümüş manat 66 manata və xırda gümüş para 25 manata gedir. Osmanlı altun lirəsi 725 manat və kağız lirəsi 220 manatdır. Tiflis

parası 1.000-ə 8 manat yuxarıdır. İngilis lirəsi 750 manat. İmperial 655 manat. Avstriya qızılı 1.650 manat və qızıl onluq 815 manatdır.

**Parlaman Komisyonlarında**

- Posta və Teleqraf Nəzarətindən Posta və Teleqraf Nəzarəti idarəsinin ştatası azalması haqqında təşrini-əvvəlin [oktyabrın] 7-də bir qanun layihəsi varid [daxil] olub, Parlaman müzakirəsinə idxal olmaq üçün göndərilmişdir.
- Maarif Nəzarətindən Göyçayda edadiyyə məktəbi güşadı [açılması] haqqında təşrini-əvvəlin 14-də [qanun layihəsi] varid olub, həman gün Maliyyə və Büdcə komisyonuna göndərilmişdir.
- Maarif Nəzarətindən Azərbaycan edadilərində 600 və İstanbul edadiyyələrində 50 stpendiya təyini haqqında bir qanun layihəsi təşrini-əvvəlin 13-də varid olub, həman gün Maliyyə və Büdcə komisyonuna göndərilmişdir.
- Türüq və Məabir Nəzarətindən [Nəqliyyat və Rabitə Nazirliyindən] Azərbaycan dəmiryolunda tətbiq olunan təşrini-əvvəl 1919 sənəsi tarifələri haqqında bir qanun layihəsi təşrini-əvvəlin 15-də varid olub, Maliyyə və Büdcə komisyonuna göndərilmişdir.

**Balaxana qadınlarının tələbi**

İşbu təşrini-əvvəl [oktyabr] ayının 14-də Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinin Balaxana köy şöbəsinə köy qadınları toplanıb atidəki [aşağıdakı] ərzi-hallarını bəyan etdilər:

Biz qadınlar, qızlarımızın məktəbdə oxumaqlarını səmimi-qəlbdən arzu edirizsə də, lakin arzumuza nail ola bilməyiriz. Maarif Nəzarəti tərəfindən köyümüzə 3 nəfər müəllimə göndərilmişdir. Lakin ünas [qızlar] məktəbimiz 4 sinifdən ibarətdir. Birinci sinfə isə 100-dən ziyadə həvəskar qızlar toplanmışlar, təhsil arzusundadırlar. Yenidən təhsil arzusunda olan qızlarımıza müəllimələr rəddi-cavab edirlər. Ona binaən [ona görə] ki, birinci sinif bir müəllimədən ibarət olub, 100-dən ziyadə qızları bir müəllimə qəbul etməyir.

Qadınlarımız bizdən nicat yolunu istədikləri cəhətinə, biz də möhtərəm Maarif Nəzarətimizdən acizanə rica ediriz ki, köydə birinci sinfi iki odadan ibarət edib bir müəllimə dəxi göndərsinlər ki, analarımız qızlarının oxumaqlarından məhrum qalmasınlar.

*İmzalar*

## FİRQƏLƏR VƏ CƏMİYYƏTLƏRDƏ

**"Müsavat"da**
**Rüşvətxor jandarm**

Suraxanı köy sakini Məşhədi İsbat Məqsədəli oğlu "Müsavat"a bir ərizə vermişdir ki, məzkur [adı çəkilən] Məşhədi İsbat Ucardan 52 rəs [baş] qoyun alıb Bakıya gətirərkən, Heybət istasyonunda Hüseyn bəy Abbasəli bəy oğlu nam [adlı] jandarm, mal sahibindən qoyunlar üçün şəhadətnamə istəmişdir. Müsəlləmdir [məlumdur] ki, Ucarda mal həkimi olmadığından, şəhadətnamə yox imiş. Böylə olduqda, jandarm malı şəhərə gətirməyə mümaniət [maneçilik] göstərmişdir. Məşhədi İsbat artıq rica etdikdən sonra ki, mallara şəhərdə həkim baxar, jandarm ondan malları buraxmaq üçün 800 manat istəmişdir. Axirüləmr [axırda] 400 manat aldıqdan sonra, dəxi həkim şəhadətnaməsi lazım gəlməyib malları buraxmışdır. "Müsavat" işbu ərzi-halın surətini Azərbaycan Dəmiryol idarəsinə göndərmişdir.

**Köylülərə yardım**

"Müsavat"a Bülbülə köyü şöbəsi xəbər vermişdir ki, təşrini-əvvəlin [oktyabrın] 10-da Bülbülə köy camaatı ümumi iclaslarında neçə sənədən bəri əkilməmiş yerlərini əkməkdən ötrü Ərazi Nəzarətindən toxum məkulat [ərzaq] və at tələb etməyi qət etmişlərdir [qərara almışlar]. "Müsavat" işbu qətnaməni Ərazi Nəzarətinə yazıb lazımi tədabir ittixazını [tədbirlər görülməsini] rica etmişdir.

**Pul mətbəəsindən oğurluq**

Azərbaycan para təb [çap] edən mətbəəsinin əmələlərinin [fəhlələrinin] "Müsavat"a mətbəədən para oğurlanması haqqında bir ərzi-hal gəlmişdir.

"Müsavat" ərzi-halın surətini Maliyyə Nəzarətinə göndərib işbu xüsusda nə kimi tədabir ittixaz eylədiyini [tədbirlər gördüyünü] "Müsavat"a məlum etməsini rica etmişdir.

Ərzi-halın surəti:

*"Cavan hökumətimizə və sevgili vətənimizə ən böyük ziyan verən bir amil varsa, o da para təb edən mətbəənin qanunsuzluğudur. Böylə qanunsuzluq paraların oğurlanmasına ən böyük bir səbəbdir.*

*Necə ki, keçən ayda 1, 8, 12, 24-cü vərəqlər qeyb olduğu raporla yazılıb idarəyə göndərildi, amma bizə heç bir cavab verilmədi. Sonra oktyabrın 4-də kəşf olunan 135 vərəq 50-lik sentyabrın 26-da oğurlanıb aparılması oktyabrın 4-də məlum oldu. Təhərri [axtarış] polisi oktyabrın 1-də 37 vərəq tapıb mətbəəyə gətirdi. Hər bir vərəq də 2200 manatdır.*

*Bu paraların mətbəədən qeyb olmasına bais yəqindir ki, əmələlər, ya mətbəə kontrolunun səhlənkarlığı, ya diqqət etməməyidir. Çünki mətbəədən kənara çıxanlar axtarılsalar, böylə xəyanətə imkan qalmaz.*

*Mətbəədə paraya qoruçu qoyulan şəxs axşam saat 10-da yatıb, səhər 7-də uyqudan durur. Yainki iş vaxtı mətbəə qarşısında oturur və ya mətbəə müqabilində olan şərabxanada içib sərxoş olur və yaxud bir tanışla müsahibətdə [söhbətdə] olur və böylə məşğuliyyətlər nəticəsi olaraq 300 min manat paranın oğurlanması meydana çıxır.*

*Hökumətin böylə ziyanına razı olamayan "Müsavat" firqəsindən böylə qanunsuzluğun önünü almağını rica edirəm."*

*İmza ...*

**Polismeysterin cavabı**

Pirşağı köyü camaatından Sabunçu-Balaxana polismeysteri əmri adı ilə camaatdan okolodoçnikə [polis sahə rəisinə] 3 min manat bağ kirayəsi, süvari milislərin atlarına 1500 manat arpa-saman parası və köy katibi üçün 3600 manat para toplanmış olduğunu qabaqda xəbər vermişdik. İşbu xüsusda "Müsavat" Sabunçu-Balaxana polismeysterindən məlumat istədiyinə cəhət, məzkur [adı çəkilən] polismeyster 4839 nömrəli kağızında cavab vermişdir ki, onun bu fəqərədən [hadisədən] qətiyyən xəbəri yoxdur.

## FƏHLƏ HƏYATI

13 təşrini-əvvəl [oktyabr] tarixində düşənbə [bazar ertəsi] günü saat 3 radələrində Balaxana mədən dairələri müsəlman əmələsi tərəfindən təşkil edilmiş iclasda aşağıda yazılmış məsail [məsələlər] mövqeyi-müzakirəyə vəz edildi [müzakirəyə qoyuldu]:

1) Kabinə böhranı;

2) Bahalıq məsələsi;

3) Məvaciblərin maaşı [dolanışığı] təmin edəmmədiyi;

4) Fəhlə Şurası;

5) Fəhlələr üçün gecə məktəbi.

Növbədən xaric olaraq məclisə təşrif etmiş Cavad bəy [Məlik-Yeqanov] əfəndiləri bidayəti-Hərbi-ümumidən [Dünya müharibəsinin başlanğıcından] hal-hazıra qədər gündən-günə nırxların tərəqqi və pul kursunun tənəzzül səbəblərini ətrafı ilə şərh və tədqiq, hal-hazırda isə təmini-maaş və asayişi-ümumi cəhətincə Azərbaycan daxilində yaşayan camaatla həmhüdud məmləkətlər əhalisinin halını bilmüqayisə [müqayisə edərək] tətbiq edib, əcnəbi məmləkətlərə nisbətən Azərbaycan ölkəsi bir cənnət halı təmsil etdiyini ədillə və bərahin [dəlil və sübutlar] ilə isbat etdikdən sonra, fəhlələrin tövsiyi-maaşı [dolanışığının yaxşılaşdırılması] üçün "Müsavat" komitəsi tərəfindən Cavad bəy və [Hüseyn] Müzəffərov əfəndiləri Məsai Nəzarəti [Əmək Nazirliyi] nəzdində təşəbbüsatda bulunmaqdan ötrü nümayəndə intixab edilmiş [seçilmiş] olub, lazimeyi-təşəbbüsata şüru etdiklərini [başladıqlarını] dəxi bəyan etdilər.

Natiq əfəndi sözünü bitirdikdən sonra, ənifüz-zikr [yuxarıda deyilən] məsələləri müzakirə nəticəsində, zeyldə mündəric maddələri havi [aşağıda yazılan maddələri ehtiva edən] qərardadı türk "Azərbaycan" qəzetəsi vasitəsilə məhəlli-aidlərinə ittila vermək [aidiyyətli yerlərə xəbər vermək] ümumiyyətlə qət və təsvib edildi [qərara alındı]:

1) Kabinə böhranı hökumətin fəaliyyət makinəsinin [maşınının] dayanmasına, hökumət fəaliyyətinin dayanması isə məmləkət daxilində cərəyani-ümurun [işlərin gedişatının] səktəyə uğramasına [pozulmasına, dayanmasına], dolayısilə də arzu edilməyən hadisələrin vüqusuna, həmçinin xarici təhlükələrə qarşı vətənin müdafiəsiz buraxılmasına səbəbiyyət göstərəcəyini düşündüyümüzdən, Parlaman heyəti-məbusanına müraciətən, Kabinə böhranına bir an əvvəl xatimə verilib, yeni Kabinə təşkilinin, fəaliyyəti bütün Azərbaycan xalqınca təqdir edilməkdə olan Nəsib bəy həzrətlərinə həvalə edilməsini müsirranə [təkidlə] tələb ediriz;

2) Getdikcə tərəqqi etməkdə davam edib də, fövqət-təhəmmüli-füqəra [kasıbların qatlaşa bilmədiyi] bir dərəcəyə vasil olan bahalıqla ciddi mübarizə edilməsi;

3) "Müsavat" nümayəndələri göstərdiyi vəch üzrə 360 manat və 33 faiz bahalıq pullarının əsl məvacibdən hesab edilməsi ilə məvaciblərin 50 faiz artırılması və ailədar əşxasa [ailəli şəxslərə] ayda 200 manat ev pulu, 35 manat hamam pulu, mücərrədlərə [tək başına olanlara] isə ayda 100 manat ev pulu, 30 manat hamam pulu verilməsi, pul[l]a fəhlələrə ucuz çörək verməkdən ötrü ərzaq almaq üçün 10 milyon pul buraxılması xüsusunda mədən sahiblərinə icrayi-nüfuz edilməsi [təsir göstərilməsi];

4) Fəhlə nümayəndələri şura təşkili xüsusunda yaxın bir zamanda intixabat [seçki] elanı verilməsi;

5) 9 nisan [aprel] tarixindən hal-hazıra qədər dəfələrlə sərəncamını rica etdiyimiz, fəhlələr [üçün] gecə kursları məsələsinin tezlikcə həll edilməsini Daxil[iyy]ə, Məsai və Maarif nəzarətlərindən rica edərək, artıq bizi məyus etməyəcəklərinə əminiz.

*İclas sədri:*
*Həmid Paşazadə*
*Katib: Əbdürrəhim [Yusif oğlu]*

## GÜRCÜSTANDA

### İngilis əsgərləri Batumda

Tiflisdə alınan məlumata görə, Batuma təzəlikcə gəlmiş olan İngiltərə əsgərləri paraxodlardan quruya çıxarılmaqdadırlar.

### Vordropun Ermənistana getməsi

Srağagün Tiflisdən İngiltərənin Zaqafqaziyada olan komissarı Vordrop İrəvana getmiş və oradan dəxi Eçmiyədzinə hərəkət etmişlərdir.

### 50 milyon təxsis

Təşrini-əvvəlin [oktyabrın] 11-də Gürcüstan hökuməti dövlət xidmətçiləri ilə fəhlələrə də ucuz qiymətlə zəruri şeylərin verilməsindən ötrü təşkilat yapmağa 50 milyon manat təxsis etmişdir [ayırmışdır].

## AZƏRBAYCANDA

### Qarabağdan
### Kürd zabitləri

Qarabağ general-qubernatorunun tövsiyəsinə görə Hərbi Nəzarətin binagüzarlığı [sərəncamı] ilə Bakıdakı zabitan məktəbinin cənbində [nəzdində] bir də kürdlərə məxsus şöbə açılıbmış. Bu şöbəyə daxil olmaq üçün Zəngəzur Kürdüstanından 30 nəfər cavanlar cəm olub dünən Şuşaya varid olub [gəlib] Bakıya azim oldular [yola düşdülər]. Bunlar tamamən kənd məktəblərini bitirmiş savadlı cavanlardır ki, Zəngəzur milis naçalniki Sultan bəy Muradov cənabları hər bir kənddən bir nəfər cavanları dəvət edibdir. Böylə görünür ki, bu kürd şöbəsi sairləri kimi olmayıb, tez bir zamanda kursları təcili surətdə qurtarıb öz vətənlərində, yəni Kürdüstanda işləməyə hazırlanacaqlar.

Bu kurslara daxil olmaq üçün həmin 30 nəfərdən başqa yenə də bir böyük dəstə həvəslilər Kürdüstandan gəlib həmin kurslara getməyə hazır olduqlarını izhar etdilərsə [bildirdilərsə] də, lakin kurslar ancaq 30 nəfər üçün açıldığını biləndən sonra qubernatordan xahiş etdilər ki, onlar üçün də bir çarə arasınlar.

### Gəncədə

1919-cu sənədə sentyabr ayının 19-cu günündə Gəncə qəzasının kəndçiləri qəzanın hər cəhətlərindən əllərində intixabnamələri [seçki kağızları] olmaq üzrə bir yerə cəm olub, bir səslə Gəncədə Kəndçi-Əkinçi İttifaqının Mərkəzi Komitəsini təşkil etdilər.

Komitənin sədri Abış Məhəmmədov,

müavini-sədr ..., katib Talıb Məşhədi Cəfər oğlu, üzvlər Məşhədi Səməd Kərbəlayı Məhəmmədhəsən oğlu, Hacı Əhməd Əliyev, Molla Rza Molla İman oğlu, Aslan Kərbəlayı Əsgər oğlu, Məşhədi Mirveyis İmamverdi oğlu, Musa Məhəmməd oğlu.

Bu komitənin iştiğal edəsi [məşğul olası] işləri bunlardan ibarətdir:

1) Azərbaycan istiqlaliyyəti yolunda;

2) Torpaq və su məsələləri haqqında;

3) Kəndçinin maarifi xüsusunda;

4) Səhiyyə işləri haqqında;

5) Hökumət məmurlarının xilafi-qanun [qanunazidd] hərəkətlərinin dəfi və rəfi yolunda [aradan qaldırılması];

6) Kəndçinin təmini-maaşı [dolanışığının təmin edilməsi] haqqında;

7) Quldurluq və yol kəsmək və qətlinəfs [adam öldürmək] işləri ilə mübarizə və qeyri bu kimi məsələlər ki, kəndçinin mənafeyinə aiddir.

Həmin Komitə[yə] rücu [müraciət] edənlər bu adresə rücu edərlər: Gəncədə Kəndçi və Əkinçi İttifaqının Mərkəzi Komitəsinə.

*Ayn. əfəndi*

**Lənkəranda**

Bu son vaxtlarda Lənkəranda bir yelkən gəmisi tutulmuşdur. Yelkən gəmisi əğləbi-ehtimala [böyük ehtimala] görə Denikin ordusuna aiddir.

Ərdəbil və sair yerlərdə müharibəyə iştirak edənlər haqqında da məlumat cəm edilmişdir ki, aşağıda yazırız:

1) Ərdəbildə olan müharibədə iştirak edən İran kazaklarının arasında çoxlu surətdə Qafqaziya və İran ermənilərindən vardır. Zabitlər isə tamam denikinçilərdir.

2) Şəhərimizdə tutulan yelkən gəmisində külli surətdə mıx, dəmir, taxta və şalman və qeyrələr kəşf edilmişdir. Gəmilər şayiata nəzərən iki imiş. Petrovskdan Ənzəliyə doğru gedirlərmiş. Küləyin şiddətli fırtınalarından birisi vasitəsilə gəmi şəhər sahilinə çıxmışdır.

3) Ənzəlidən gələn sərnişinlərin rəvayətinə görə, həman gəminin ikincisi isə orada boşadılır. Əşyasının çoxlusu ləvazimi-hərbiyyə [hərbi ləvazimat] olmaq üzrədir, silahdır.

4) Şəhərimizdə tutulan İran hərbi formasında Denikin tərəfdarı zabitlərdən çox şübhəli mandatlar [vəsiqələr], şifrəli teleqraflar və bəzi məlumatlı kağızlar və para tutulmuşdur. Özləri isə Bakıya göndərilmişdir.

5) Bizə məlum olunan xəbərlərə görə, muğanlıların əslihələri [silahları] tamam alınmamağına binaən [görə], idarə rica edir ki, məzkur [deyilən] Muğan rus əhlindən bittamam əslihələr cəm edilsin. Zira əhali çox narazıdır və gələcəkdə istiqlaliyyətimizə də böyük zərərlər toxunasıdır.

*Sad.*

Lazımdır 4-6 otaq, şəhərin mərkəzində, hər bir ehtiyacatıyla. Müxəlləfatını [ev avadanlıqlarını] alaram. Tapanlara və göstərənlərə yaxşı mükafat.

Adres: "Azərbaycan" qəzetəsinin kontoru 11455 nömrəli qəbz göstərənə.

*11455*





**Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*

**Xüsusi müsəlman təvəllüdxanası Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsamama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Doktor Əliheydər Allahverdiyev**

Naxoşları qəbul etməyə başlamışdır. Hər gün səhər saat 8-dən 9-adək, axşam saat 4-dən 7-yədək. İçəri şəhər Bolşoy Minaretski küçə, nömrə 1. Bağın qarşısında. Telefon nömrə 36-21.

*9051*

**Doktor M. İ. Lurye**

Əmrazi-zöhrəviyyə və daxili naxoşluqları qəbul edir. 914 və 606 müalicəsi. Qəbul edir hər gün səhər saat 8-1-ədək; axşam saat 4-7-yədək. Ünvan: Vorontsovski küçə, nömrə 45, Bandarnının küncündə, yolu Bandarnıdan, nömrə 8, 3-cü mərtəbə. Telefon: 17-06 və 52-36.

*7406*

**Berlin Darülfünunu doktoru N. Melkumyan[s]**

Daxili, zöhrəvi, sifilis, "606" və "914" müalicələrini qəbul edir hər gün səhər saat 8-dən 12-yədək, axşam saat 4-dən 7-yədək.

Ünvan: Voronsovski küçə, nömrə 9-11. Kolyubakinski küçənin küncündə. Telefon nömrə 34-34.

**Diş həkimi R. M. Altman**

Gəlib və qəbul edir naxoşları gündüz saat 8 - 2-yədək, axşam saat 4 - 7-yədək. Müsəlman xanımları üçün əlahiddə qəbul olunan otaq. Adres: Şamaxinka, ev nömrə 20. Aptekin qarşısında.

*11417*

**Berlin Darülfünunu doktoru S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları. Qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Elektrik müalicəsi, 606 və 914 müalicəsi və qeyriləri.

Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*4051*

**Diş həkimi B. L. Levin**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Dişləri ağrısız çəkir. Kabinədə diş çıxığı

laboratoriyası vardır. Qızıl ənglər, qızıl köklər, kauçuk işləri. Qəbul edir səhər saat 9-dan 1-ə dək, axşam saat 4-dən 8-ə dək. Adres: Sisyanovski, nömrə 7, Qubernskinin küncündə.

*9090*

**Təbib**
**Əmir bəy Aslanov**

Qəbul edir naxoşları (daxiliyyə və cildiyyə) axşam saat 4-dən 6-yadək. Adres: Ofiserski küçədə (Nikolayevski küçənin küncündə) nömrə 6. Telefon 41-14.

*11430*

**Diş həkimi**
**A. A. Mirkin**

Dişlərə müalicə olunub və doldurulur. Kauçuk və qızıl üzərində süni dişlər qayırılır. Dişlərin ağrısız çəkilməsi. Qəbul olunur: gündüzlər 9-dan 2-yədək; axşamlar 4-dən 7-yədək. Ünvan: Gimnaziçeski küçə, nömrə 164.

*11426*

**Diş həkimi**
**S. M. Hamburq**

Təzə işlər, qızıl, kauçuk, platina üzərində dişlər qayırılır. Qəbul olunur saat 9-dan 2-yədək, 4-dən 6-yadək. Nikolayevski caddə 21, Parlaman qarşısında. Telefon 5-96.

*9056*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək.

Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Professor Buyneviçin**
**müsəkkər [sakitləşdirici] kabinetinin**
**sabiq assistenti**
**Doktor Q. Musaelyans**

Ürək, mədə, bağırsaq və qeyri daxiliyyə naxoşluqları qəbul edir səhərlər 9-dan 12-yədək, axşamlar 5-dən 7-yədək. Ünvan: Karantinni və Bolşoy Morskoy küçələrin küncündə (Telefonnı küçənin başında). Telefon: 40-22.

*11446*

**Diş həkimi E. S. Karşteynbaum**

Maddi cəhətdən zəiflər üçün xüsusi güzəştdə bulunur. Diş çıxartmaq ağrı ilə 25 manat, diş çıxartmaq ağrısız 50 manat. Müalicə və doldurması 80 manatdan 100-ə kimi. Məsləhət 15 manat.

Ünvan: Quba meydanı yanında Sisianovski küçə nömrə 41, İsrafilovun evində. Telefon: 22-57.

*11449*

**Diş müalicəxanası D. İ. Zeylidzon**

Xüsusi qızıl və platina işləri. Kötük və körpülər və farforlar. Dişlərin ağrısız çəkilməsi. Qəbul olunur məhzən növbətə yazılmaqla səhərlər saat 9-dan 2-yədək, axşamlar saat 5-dən 7-yədək. Ünvan: Malakanski küçə, ev nömrə 1. Telefon nömrə 19-55.

*11442*

**Elan**

Bununla Ticarət, Sənaye və Ərzaq Nəzarəti Lənkəran qəzasından və Muğandan taxıl aparmaq qadağan olduğu üçün verilən əmrnaməsinin ləğv edildiyini həmin oktyabr ayının 11-dən ümum əhaliyə elan edir.

*Nazir: [Ağa] Əminov*
*İdarə müdiri: Makinski*
*T-282*

***Müdir:***
***Hacıbəyli Üzeyir***





## QEYD VƏ ŞƏRHLƏR

**İnna lillahi və inna ileyhi raciun**

səh. 273. “İnna lillahi və inna ileyhi raciun”: “Həqiqətən biz Allaha məxsusuq və həqiqətən Ona qayıdacağıq”. Bu ifadə, “Quran”ın Bəqərə surəsinin 156-cı ayəsinin bir hissəsidir. Ayə belədir: “O kəslər ki, başlarına bir müsibət gəldikdə, həqiqətən biz Allaha məxsusuq və həqiqətən Ona qayıdacağıq, deyərlər.”

**Sirk “Modern”**

səh. 273. “Pəncşənbə günü oktyabrın 16-nda”: qəzetdə “Çaharşənbə günü oktyabrın 15-ndə” getmişdir.

**Elan**

səh. 273. “kərəci”: bir neçə adamlıq, dorlu qayıq.

“barkaz” (yaxud barkas): adətən liman daxilində yük daşımaq üçün istifadə edilən kiçik gəmi.

**İki siyasət**

səh. 275. “Tan”: 1861-1942-ci illərdə Parisdə fransız dilində nəşr edilən gündəlik “Le Temps” qəzeti nəzərdə tutulur.

**Məclisi-Müəssisan Seçkiləri**
**Haqqında Qanun**

səh. 278. “9) Məclisi-Müəssisan əzasının”: qəzetdə “9” yerinə “7” getmişdir.

**Teleqraf xəbərləri**

səh. 280 “Kiyevlyanin”: Kiyevdə 1864-cü ildən 1919-cu ilin dekabrına qədər rus dilində nəşr edilmiş qəzet. Qəzetin təsisçisi və ilk redaktoru tarixçi Vitali Yakovleviç Şulgin olmuşdur. 1919-cu ildə qəzetin redaktoru Vitali Şulginin oğulluğu Vasili Şulgin idi.

“Savenko”: qəzetdə “Savinkov” getmişdir.

**Qəzetələrdən**

səh. 283. “Ərəblərlə edilən rəftarın eynisini”: qəzetdə “eynisini” yerinə “qeyrisini” getmişdir.

“Beynənnəhreyn”: (yaxud İkiçayarası) Yaxın Şərqdə tarixi-coğrafi bölgə, Dəclə və Fərat çaylarının arasında qaldığından, bu adı almışdır.

**Dağıstanda**

səh. 284. “Petrovsk”: indiki Mahaçqala şəhəri.

“Teymurxanşura”: İndiki Buynaksk şəhəri.

**Nəzarətlərdə**

səh.285. “Yusif Dadaşovun dəniz kənarındakı evi”: Naberejni küçəsində (indiki Neftçilə prospektində) Azərbaycanlı milyonçu və xeyriyyəçi Yusif Dadaşova məxsus olmuş mülk nəzərdə tutulur.

**Çörəyin bahalanmasına qarşı**

səh. 288. “Ümumrusiya Zemstvo İttifaqı” [Всероссийский земский союз]: 1914-cü ilin ortalarında Rusiyada yaradılmış ictimai-siyasi təşkilat. Özündə minlərlə kiçik xeyriyyə müəssisəsini birləşdirən İttifaq, əsasən xəstə və yaralı əsgərlərə kömək göstərmək və ordunu müxtəlif mallarla təchiz etmək məqsədi güdürdü.

**Bakı xəbərləri**

səh. 289. “Quşmaşon”: yazılışında yaxud oxunuşunda qeyri-dəqiqlik olması ehtimalını da nəzərə almaqla, bu coğrafi adın haraya məxsus olduğunu müəyyənləşdirə bilmədik.

**Firqələr və cəmiyyətlərdə**

səh. 293. “Ərazi Nəzarətindən toxum məkulat və at tələb etməyi qət etmişlərdir”: mümkündür ki, “hübubat” deyilən buğda, arpa kimi dənli bitkilərin toxumu nəzərdə tu-

tularaq "toxmi-məkulat" demək istəmişlər.

"İmza ...": qəzetdə belə getmişdir.

**Azərbaycanda**

səh. 296. "müavini-sədr ...": qəzetdə belə getmiş, sədr müavininin adının yerinə nöqtələr qoyulmuşdur.





**Cümə, 17 oktyabr 1919-cu il, nömrə 298**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Cümə, 22 məhərrəmül-haram sənə 1338. 17 təşrini-əvvəl 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 2 manat 50 q.**

**Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 70 rublə, 2 aylığı 130 rublə, 3 aylığı 180 rublə. Bakı üçün 1 aylığı 60 rublə, 2 aylığı 110 rublə, 3 aylığı 150 rublə. Abunə şəraiti ancaq həmin sənə yanvar ayının 1-nədək heasb olunur.**

**Elan fiatı: birinci səhifədə sətri 8 rublə, axırıncı səhifədə sətri 6 rublə, itən şeylər və yer axtaranlar üçün 4 rublə axırıncı səhifədə, 6 rublə birinci səhifədə.**

**SİRK "MODERN"**

Cümə günü oktyabrın 17-ndə 1919-cu ildə məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə təşkil edilmiş Fransa güləş mübarizəsinin mabədi.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-nci: Boqatıryov – Staroşvili.

2-nci: Qara Maska tərəfindən üç min manat mükafat: Qara Maska – Oleynikov.

3-ncü: Zakoroyko – Gənc Əli.

Pəhləvanların çıxışı və mübarizənin başlanması saat 11-in yarısında. Tamaşa başlanacaq 8-də, qurtaracaq 12-də. Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

Elan: Qırmızı Maskanın benefisi hazırlanır.

*11454*

**ELAN**

Hökumət Müfəttişliyi naziri həzrətlərinin 12 həmin oktyabr 1438 nömrə təliqəsinə binaən, bu gündən etibarən Cümhuriyyətimiz daxilində olan ümum gömrükxanaların və əvvəl mərhələdə Ağstafa gömrükxanasının təftişinə şüru etdim. Ümumdan kamali-ehtiramla rica və təmənna edirəm ki, məzkur gömrükxanaya əşya və malların müsadirəsi və hakəza qeyri biqanunluqlar barədə olan şikayətlərini Hökumət Müfəttişliyi Nəzarətinə (dəniz kənarı Mirbabayevin evləri) kitabətən və yaxud və ya şifahən Ağstafa istasyonunda məlum və ixbar etsinlər.

*Dövlət Müfəttişliyi nazirinin*
*xüsusi əmrlər məmuru:*
*Məcnunbəyov.*
*T-290*

**ELAN**

Bununla Azərbaycan Dəmiryol İdarəsi məlum edir ki, Türüq və Məabir nazirinin 919-16/7-ci ildə verdiyi icazənamə üzrə elan olunan gündən Bakı şəhər istasyonu körpüsünə gələn paraxodlardan atidəki xərclər alınacaqdır:

1) 15 min pud yükü və boş olan paraxodlardan sutkada 300 rublə;

2) 40 min pud yükü olan paroxodlardan sutkada 500 rublə;

3) 4 min pud yükü olan lodka, kərəci və barkazlardan sutkada 100 rublə;

4) Dəmiryol ilə gələn yükləri şəhərə gətirən lodkalardan bir vaqondan 150 rublə.

Yuxarıda zikr olunan xərclər Dəmiryol İdarəsi ilə şəraitə girməyən paraxod sahiblərindən alınacaqdır.

*T-285*